RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 1 (8317) ÇƏRŞƏNBƏ, 8 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Regionların sosial-iqtisadi inkişafı 2019-cu ildə də Prezident İlham Əliyevin fəaliyyətinin prioritetlərindən olub

# 13 səfər, 22 yeni obyektin açılışı

Yola saldığımız 2019-cu il ölkəmizin tarixində dərin islahatlar ili, həm də bölgələrin sosial-iqtisadi inkişafında uğurlu illərdən biri kimi yadda qaldı. Həyata keçirilən mütərəqqi islahatlar dövlətin gücünü və potensialını artırdı. İqtisadi göstəricilərə nəzər yetirdikdə görərik ki, ötən il iqtisadiyyatın qeyri-neft sektoru 3 faizdən çox artıb. Dövlətin xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Ölkənin valyuta ehtiyatları bu il 4,5 milyard dollar artaraq rekord həddə - 50 milyard dollara çatıb. Sənaye istehsalı, xüsusilə də qeyri-neft sektorunda sənaye artımı 14 faiz təşkil edib. Kənd təsərrüfatında isə 7 faiz artım var. Yəni bütün əsas istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafı real göstəricilərlə təsdiqlənir.

### Prezident qayğısı, səmimi görüşlər, problemlərin həlli, tapşırıq və tövsiyələr

Ümumiyyətlə, son 16 illik yola nəzər salsaq görərik ki, Prezident İlham Əliyevin bölgələrə çoxsaylı səfərləri və vətəndaşlarla söhbətləri bu sahədə çox gözəl bir ənənə yaradıb. Dövlət başçısı mütəmadi olaraq regionlara səfər edir, vətəndaşlarla səmimi görüşlər keçirir, onların problemləri ilə maraqlanır və yeni-yeni müəssisələrin, sosial iaşə obyektlərinin açılışında iştirak edib xeyir-duasını, tövsiyələrini verir.

Keçirilən səmimi görüşlərdə Prezident hər kəsi dinləyir, vətəndaşların məktublarını alır və tapşırıqlarını verir. Vətəndaşların təklifləri mütləq nəzərə alınır və bölgələrdə bir çox layihələr məhz onların təklifləri əsasında reallaşır.

Hər il olduğu kimi, 2019-cu ildə də cənab İlham Əliyev regionlara səfərlər edərək verdiyi tapşırıqların icrası ilə maraqlanıb, görülən işlərlə yerində tanış olub, müxtəlif sosial infrastrukturların açılışını edib və əhali ilə görüşərək səmimi söhbətlər edib.

Statistik göstəricilərə nəzər yetirsək görərik ki, ötən il Prezident 5 iqtisadi rayon üzrə 8 şəhər və rayona 13 dəfə səfər edib:

Abşeron iqtisadi rayonu üzrə - **Sumqayıt** (4 dəfə - 16 yanvar, 18 fevral, 21 noyabr, 26 dekabr);

Aran iqtisadi rayonu üzrə - **Beyləqan** (13 fevral); **Ağdaş** (28 oktyabr);

Şəki-Zaqatala iqtisadi rayonu üzrə - **Qəbələ** (28 oktyabr);

Dağlıq Şirvan iqtisadi rayonu üzrə - **Ağsu** (6 mart), **Şamaxı** (3 dəfə - 7 fevral, 7 mart, 5 dekabr) və **Qobustan** (7 may);

Quba-Xaçmaz iqtisadi rayonu üzrə - **Qusar** (27 dekabr).

### Açılan müəssisələr, yeni iş yerləri, sosial problemlərin həlli

Ölkədə innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin, həmçinin qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin məşğulluğunu artırmaq məqsədilə nəhəng sənaye parkları və məhəllələri, zavod və fabriklərin yaradılması prosesi uğurla davam etdirilir.

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması baxımından bu cür sənaye parklarının və məhəllələrinin müstəsna əhəmiyyəti var.

Ötən il bölgələrə səfərləri zamanı Prezident 22 mühüm sosial-iqtisadi və müxtəlif iaşə obyektlərinin, reallaşan içməli su və kanalizasiya layihələrinin, yol infrastrukturu obyektlərinin açılışını edib:

**Sumqayıt** - "SOCAR karbamid" və "SOCAR Polymer"in yüksəksıxlıqlı polietilen zavodu; Muğam Mərkəzi, "Nizami" kinoteatrının yeni binası.

*Ardı 3-cü səh.*

# 2019-cu ildə qarşıya qoyulan bütün vəzifələr uğurla icra edildi



## Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

- Əziz həmvətənlər!

2019-cu il arxada qalır. Bu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz inkişaf yolu ilə uğurla gedib.

2019-cu ildə ölkəmiz sabitlik, əmin-amanlıq şəraitində yaşamışdır. Dünyada gedən proseslər göz qabağındadır. Dünyanın müxtəlif yerlərində, bizim yerləşdiyimiz regionda, postsovet məkanında, Avropada, Asiyada, Latın Amerikasında münaqişələr, müharibələr, qanlı toqquşmalar, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının tapdalanması geniş vüsət almışdır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf məkanıdır. Bu, bizim böyük nailiyyətimizdir. Azərbaycan xalqı 2019-cu ildə təhlükəsizlik şəraitində yaşamış, qurmuş, yaratmışdır.

Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. İl ərzində 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana səfər etmişdir. Bizim ikitərəfli əlaqələrimiz böyük dərəcədə genişlənmişdir, çoxtərəfli formatda uğurla əməkdaşlıq edirik, ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Onların arasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşünü qeyd etməliyəm. Zirvə Görüşü nəticəsində Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməyə başlamışdır. Qoşulmama Hərəkatının Zirvə Görüşü Azərbaycanda keçirilmişdir və 120 ölkənin yekdil qərarı ilə Azərbaycan bu böyük təsisata 3 il ərzində sədrlik edəcəkdir. Bu, bizə göstərilən böyük etimaddır. Bu, onu göstərir ki, dünya birliyinin böyük əksəriyyəti Azərbaycanı dəstəkləyir və bizə böyük hörmətlə yanaşır.

Bu il Bakıda Dünya dini liderlərinin Zirvə Görüşü keçirilmişdir, 70 ölkədən gəlmiş dini liderlər Azərbaycanda gedən proseslərə çox müsbət qiymət vermişlər. Azərbaycan multikultural, öz ənənələrinə, milli, dini dəyərlərinə sadiq ölkə kimi özünü bu Zirvə görüşündə təqdim etdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün aparıcı beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər, öz mövqeyini ortaya qoymuşlar. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir, orada açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına böyük dəstək ifadə edilmişdir. Beləliklə, həm tarixi baxımdan, həm beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səslənirdi. Gah deyirdilər ki, qondarma "Dağlıq Qarabağ respublikası" müstəqil dövlətdir və Azərbaycan bu dırnaqarası müstəqil dövlətlə danışıqlar aparmalıdır. Bu, yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır.

*Ardı 2-ci səh.*

# "Qoy Tanrı öz mərhəmətini xalqımızdan əsirgəməsin!"



## Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqımızı təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə rəsmi "Instagram" səhifəsində xalqımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə qeyd edilir:

"Əziz həmvətənlər!

Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Qoy Tanrı öz mərhəmətini xalqımızdan əsirgəməsin! Qoy Yer üzündəki bütün azərbaycanlılar sağlam və xoşbəxt olsun! Bu bayram günündə sizə möhkəm cansağlığı, xoş ovqat, ailələrinizə sevinc və rifah arzulayıram!".

# "Cəmiyyətimizin ayrılmaz hissəsi olan xristianlar Azərbaycanın tərəqqisi naminə bacarıq və səylərini əsirgəmirlər"

## Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycanda əsrlər boyu müxtəlif xalqların və konfessiyaların nümayəndələri mehriban qonşuluq, dostluq və qarşılıqlı etimad şəraitində yaşamışlar. Cəmiyyətdə etnik-mədəni müxtəlifliyin, multikultural ənənələrin və dözümlülük mühitinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlətimizin siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmlənməsinə önəmli töhfələr verən mötəbər tədbirlərin, o cümlədən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Dünya dini liderlərinin II Bakı Sammitinin ölkəmizdə keçirilməsi beynəlxalq miqyasda sülhün, əmin-amanlığın və harmoniyanın bərqərar olunması işində Azərbaycanın mühüm rol oynadığını göstərir.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristianlar ölkəmizdə gedən böyük quruculuq işlərində və milli-mənəvi həmrəyliyin daha da gücləndirilməsində vətəndaşlıq borcunu layiqincə yerinə yetirir, Azərbaycanın tərəqqisi naminə bacarıq və səylərini əsirgəmirlər.

Əziz həmvətənlər!

Mübarək Milad bayramı yeni həyatı, dirçəlişi, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 yanvar 2020-ci il*

# Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edib

## Prezident İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" ASC-nin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Mən sizi "Azərişıq" Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəyə məsuliyyətlə yanaşacaqsınız.

Bu, çox məsuliyyətli vəzifədir və enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Son illər ərzində ölkəmizdə bu sahədə çox böyük işlər görülübdür. Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş I Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim təqribən 1000 meqavatlıq əlavə enerji güclərimiz var ki, bu güclər həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından təqribən 60 milyon dollar civarında vəsait əldə edibdir.

Bütün bu işlərin təməlində generasiya güclərinin yaradılması dayanır. Biz son 15 il ərzində təqribən 3000 meqavata yaxın yeni generasiya gücləri yaratdıq, bir çox elektrik stansiyaları inşa edildi və beləliklə, Azərbaycan bu istiqamətdə dünya miqyasında aparıcı ölkələrin birinə çevrilibdir. Eyni zamanda, paylayıcı xətlərin yenidən qurulmasına və çəkilməsinə də böyük diqqət göstərildi. Əlbəttə ki, paylayıcı şəbəkənin müasir standartlara cavab verməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Vaxt var idi ki, ölkəmizin enerji təminatı özəl qurumların əlində idi və bu praktika özünü doğrultmadı. Əksinə, bizim üçün böyük problemlər yaratmışdır. İndi bəziləri unudub, vaxtilə elektrik enerjisinin qıtlığına görə gecə saatlarında televiziya kanalları söndürülürdü. Bakının enerji təminatı tamamilə bərbad vəziyyətə düşmüşdü. Bakının enerji təminatını inhisara götürmüş "Barmek" şirkəti enerji təsərrüfatını tamamilə sıradan çıxarmışdı. İndi bir çoxları o dövrü unudub. Mən bunu yaxşı xatırlayıram ki, məhz mənim göstərişimlə və sərəncamımla xarici iş adamlarının yarıtmaz fəaliyyəti geniş təhlil edildi. Bakının enerji təminatı yenə dövlətə qaytarıldı və "Azərişıq" yaradıldı. "Azərişıq" Səhmdar Cəmiyyətinin adını da mən vermişdim. O gündən bu günə qədər dövlət bu sahəyə böyük vəsait ayıraraq ciddi dönüş yarada bildi. Bu gün Azərbaycanda enerji dayanıqlılığı tam təmin edilir.

Ancaq bütün bu müsbət məqamlara baxmayaraq, böyük çatışmazlıqlar da, böyük qüsurlar da olubdur. Əgər bunlar olmasaydı, 2018-ci ildə biz o qəza ilə üz-üzə qalmazdıq. Qəzadan sonra aparılan təhlil işləri göstərdi ki, bu, sırf səhlənkarlıq, məsuliyyətsizlik nəticəsində baş vermişdir. Mənə şəkillərlə, sübutlarla böyük məruzə edildi, bizim Mingəçevir İstilik Elektrik Stansiyası necə bərbad gündə idi. Adam o şəkillərə baxanda dəhşətə gəlirdi. Bu qədər səhlənkarlıq, bu qədər məsuliyyətsizlik olarmı? Ona görə "Azərenerji"nin rəhbərliyi tamamilə dəyişdirildi.

Mingəçevir İstilik Elektrik Stansiyasının 5 bloku əsaslı təmir edildi, demək olar ki, yenidən quruldu və itirilmiş güclər bərpa olundu. Biz təqribən 400 meqavatlıq itirilmiş gücləri bərpa etdik. Yəni bizim mövcud elektrik stansiyaları məhz məsuliyyətsizlik və qeyri-peşəkar hərəkətlərə görə o gücləri itirmişdi. Biz yeni stansiya tikmədən təmir işləri nəticəsində 400 meqavat gücü bərpa etdik. Mingəçevir İstilik Elektrik Stansiyasının qalan 3 blokunda 2020-ci ildə yenidənqurma işləri aparılacaq və əlavə enerji, generasiya gücü əldə ediləcək.

Bununla paralel olaraq, 2019-cu ildə 400 meqavat gücündə "Şimal 2" elektrik stansiyası istifadəyə verilib. Bu da enerji potensialımızı böyük dərəcədə gücləndirən amildir. Eyni zamanda, biz indi bərpaolunan enerji növlərinin yaradılması ilə ciddi məşğuluq. Artıq 50 meqavatlıq külək elektrik stansiyası fəaliyyət göstərir. Hazırda özəl şirkətlər, xarici şirkətlər bu sahəyə böyük maraq göstərirlər, 100 milyonlarla dollar səviyyəsində investisiya yatırmaq istəyirlər və biz bunu yüksək qiymətləndiririk.

Beləliklə, növbəti illərdə bizim artan tələbatımızı ödəmək üçün həm yeni stansiyalar qurulmalıdır, həm də elektrik enerjisini təmin edən mövcud qurğular təftiş edilməlidir, yeni yarımstansiyalar inşa olunmalıdır, təmir edilməlidir. Biz bütün bu işləri görürük və ardıcıl şəkildə görəcəyik. "Azərişıq" da öz işində ən müasir prinsipləri rəhbər tutmalıdır. Bizim bütün enerji təsərrüfatımız yüksək standartlara cavab verməlidir. Generasiyadan başlamış son nöqtəyə - vətəndaşların mənzilinə qədər elektrik enerjisi dayanıqlı şəkildə təmin edilməlidir.

Mən bölgələrə çoxsaylı səfərlərim çərçivəsində bir sıra elektrik stansiyalarının, yarımstansiyaların açılışında iştirak etmişəm. Hər zaman maraqlanıram ki, rayonlarda elektrik enerjisi ilə bağlı vəziyyət necədir. Son illər bu sahədə çox böyük dönüş var və bu proses davam etdiriləcək. Hələ ki, təmirə ehtiyacı olan enerji infrastrukturumuz var. Biz bu məsələləri ardıcıl şəkildə həll edəcəyik ki, bu sahədə heç bir problem olmasın.

Ölkəmizdə əhalinin və sənaye potensialının artımı diktə edir ki, bu sahə daim diqqət mərkəzində olsun. Odur ki, mən Prezident kimi fəaliyyətə başlayanda infrastruktur layihələri arasında, ilk növbədə, məhz bu sahəyə böyük diqqət göstərildi. Mənim göstərişimlə və nəzarətim altında bölgələrdə bir neçə elektrik stansiyası tikilmişdir. Biz "Xaçmaz", "Şahdağ", "Astara", "Şəki", "Bakı" stansiyalarını tikdik ki, hər bir bölgədə güclər mövcud olsun və artırılsın. Şirvan şəhərində 800 meqavata yaxın generasiya gücü olan "Cənub" elektrik stansiyası tikilmişdir. "Şimal-1", "Şimal-2" elektrik stansiyaları istifadəyə verilmişdir. Bütün bunlar böyük zəhmət, uzaqgörənlik tələb edir. Biz vaxtilə idxaldan asılı idik. İndi isə biz özümüzü elektrik enerjisi ilə təmin edirik və ixrac da edirik. İxrac o təqdirdə edilə bilər ki, daxili tələbat tam ödənilsin. Biz indi buna nail ola bilmişik.

Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu bu sahədə görülmüş işlərə çox yüksək qiymət veribdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Forumu Azərbaycanı MDB məkanında birinci yerə layiq görüb, dünya miqyasında isə ikinci yerdəyik. Biz bu göstəriciyə görə ən inkişaf etmiş ölkələri qabaqlamışıq. Elektrik enerjisinin istehsalının və paylanmasının əsas məqsədi onun müəssisəyə və vətəndaşa çatdırılmasıdır. Əlçatanlıq bu deməkdir. Yəni ki, insanların, müəssisələrin enerjiyə əli çatır və bu əmsala görə biz dünyada ikinci yerdəyik. Bax, budur bizim gördüyümüz işlərin nəticəsi. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənə bilmərik. Həm "Azərenerji", həm də "Azərişıq" qarşısında çox böyük vəzifələr qoyulub. Əminəm ki, bu vəzifələr ardıcıllıqla icra ediləcək və beləliklə, elektrik enerjisi ilə təminat daim yüksək səviyyədə olacaqdır.

**Vüqar ƏHMƏDOV:** Cənab Prezident, mənə göstərdiyiniz bu yüksək etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Çalışacağam bu yüksək etimadı öz işlərimlə doğruldum.

Cənab Prezident, Sizin digər sahələrdə olduğu kimi, elektroenergetika sahəsində gördüyünüz işlər də hər kəsin gözü önündədir. Qeyd etdiyiniz kimi, dörd il bundan əvvəl yaradılan "Azərişıq" Səhmdar Cəmiyyəti Sizin sayənizdə irimiqyaslı işlər görmüşdür. Bu gün "Azərişıq" Səhmdar Cəmiyyəti istehlakçıları fasiləsiz elektrik enerjisi ilə 100 faiz təmin edir. Bu günədək 70-dən artıq 110 kilovoltluq və təqribən 300-dən çox 35 kilovoltluq yarımstansiya tikilmiş və ya əsaslı təmir edilmişdir. İndiyədək 1 milyon 200 mindən çox yeni sayğac quraşdırılmışdır ki, bu da itkilərin qarşısının alınmasında mühüm rol oynayıb. Şəbəkənin qoyuluş gücü 9 min meqavatamperdən 13 min meqavatamperə çatdırılıb. Baş verən qəzaların aradan qaldırılması üçün məsafədən idarə olunan dörd avtomatik idarəetmə mərkəzi yaradılıb. Yığım 95 faizə çatdırılıb, "Azərenerji"yə ödənişlər 100 faiz təmin edilib.

Hazırda 56 rayonun paylayıcı elektrik şəbəkəsi üzrə 13 min 500-dən artıq transformator məntəqəsinin yenisi ilə əvəz olunması işləri davam etdirilir.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Bu sahədə doğrudan da çox işlər görülüb, o cümlədən vaxtilə böyük probleme çevrilən ödəməmələr məsələsi ilə bağlı. İndi bu problem mövcud deyil. Siz "Azərenerji"yə enerji pulunu 100 faiz ödəyirsiniz və yığım da 95 faizdir, bu da hesab edirəm ki, yaxşı nəticədir.

Əlbəttə ki, gələcəkdə, xüsusilə ucqar dağ kəndlərində enerji təsərrüfatına da böyük diqqət göstərilməlidir. Çünki biz demək olar ki, bütün şəhərlərdə artıq yeni yarımstansiyaların, transformatorların quraşdırılması nəticəsində problemi həll etmişik, ancaq bəzi kəndlərdə dirəklər köhnədən qalıbdır. Mən o kəndlərdə olarkən görürəm ki, hələ də taxta dirəklər qalmaqdadır. Onları müasir dirəklərə dəyişdirmək üçün əlavə tədbirlər görülməlidir. Paylayıcı xətlər indi tamamilə yenilənibdir. Ona görə enerji təminatını indiki səviyyədə saxlamaq üçün əlbəttə ki, biz daim fəal olmalıyıq və o cümlədən "Azərişıq" daim bu işlərə diqqət yetirməlidir. Çünki bizim tələbatımız artır. Baxın, 2019-cu ildə qeyri-neft sənayemiz 14 faiz artıbdır. Deməli, əlavə enerji gücü lazımdır. Hesab edirəm ki, şəbəkəyəqoşulma bizdə yüksək səviyyədə təmin olunur. Bəzi ölkələrdə bu, böyük probleme çevrilir və açılan müəssisələr ümumi şəbəkəyə qoşula bilmir. Bizdə bu problem yoxdur. Ancaq tələbat artır, əhali artır və artacaq. İndi əhali 10 milyona çatıbdır. İllər keçdikcə bu, 11 milyona, 12 milyona çatacaq. Ona görə bizim şəbəkəmiz buna hazır olmalıdır. Ona görə biz böyük vəsait ayırırıq ki, generasiya güclərini tamamilə təzələyək. Biz indi profisitlə çalışırıq. Ancaq biz gərək generasiya güclərini daim elə vəziyyətdə saxlayaq ki, Azərbaycanda heç vaxt qıtlıq olmasın. Əlbəttə ki, enerji təsərrüfatını normal vəziyyətdə saxlamaq üçün bütün istismar qaydaları gərək yüksək səviyyədə təmin edilsin. 2018-ci ildə baş vermiş qəza böyük dərs olmalıdır. Bu qəzadan sonra görülmüş tədbirlər öz nəticəsini verməkdədir. Biz yarımstansiyaların dairəvi qaydada birləşdirilməsi nəticəsində özümüzü qəzalardan, qəzaların fəsadlarından qoruyuruq. Qəza hər bir ölkədə baş verə bilər. Ancaq əsas məsələ ondadır ki, bu qəzanın fəsadları hansısa müddət ərzində aradan qaldırılır. Bu dairəvi sistemi biz ona görə yaratmışıq ki, enerji təminatını qısa müddət ərzində təşkil edə bilək. Sizə uğurlar arzulayıram. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız.

# 2019-cu ildə qarşıya qoyulan bütün vəzifələr uğurla icra edildi

## Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

*Əvvəli 1-ci səh.*

Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Əminəm ki, bizim ardıcıl, düşünülmüş siyasət münaqişənin həllinə gətirib çıxaracaq. İqtisadi gücümüz, hərbi gücümüz, siyasi gücümüz, demoqrafik artım - bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əminəm, gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə bu il böyük addımlar atılmışdır.

2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları, iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırmışdır. Bu il iqtisadiyyat artmışdır, iqtisadiyyatın qeyri-neft sektoru 3 faizdən çox artmışdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu da dünya miqyasında 9-cu göstəricidir və bundan sonrakı illərdə xarici borcumuz daha da aşağı düşəcək. Bizim valyuta ehtiyatlarımız bu il 4,5 milyard dollar artmışdır və rekord həddə - 50 milyard dollara çatmışdır. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, bu, ölkəmizin iqtisadi və maliyyə imkanlarının dayanıqlılığını ifadə edir. Sənaye istehsalı artmışdır, xüsusilə qeyri-neft sektorunda sənaye artımı 14 faiz təşkil etmişdir. Kənd təsərrüfatında 7 faiz artım vardır. Yəni, bütün əsas istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafı reallıqdır.

Biz Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında donor ölkəyə çevrildik. Biz indi borc alan yox, borc verən ölkəyik. Bütün bunlar düşünülmüş siyasətin təzahürüdür. Bütün bu uğurlu nailiyyətlər imkan verir ki, biz sosial sahəyə daha böyük həcmdə vəsait ayıraq və bunu etdik. Bu il də bu baxımdan çox yaddaqalan il olmuşdur. Çox geniş, hərtərəfli sosial paket təqdim edildi və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etdi. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 100 faiz, yəni, 2 dəfə artmışdır. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz artmışdır. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz bu gün MDB məkanında birinci yerdəyik. Bizim sosial siyasətimiz bir daha onu göstərir və mən dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əminəm ki, gələcək illərdə iqtisadi imkanlarımız genişləndikcə sosial sahəyə bundan da böyük diqqət göstəriləcək.

Şəffaflıq baxımından bu il çox uğurlu il olmuşdur. Vergi və gömrük orqanları xəzinəyə plandan əlavə 1 milyard manatdan çox vəsait daxil etmişlər və əlbəttə, bu, imkan verir ki, - əminəm, bu meyil gələn il də müşahidə olunacaq, - biz daha geniş miqyasda sosial və infrastruktur layihələri icra edək.

Məcburi köçkünlərin problemləri həll olunur. Bu il 5 mindən çox məcburi köçkün ailəsi, 800-ə yaxın şəhid ailəsi üçün yeni mənzillər, evlər tikilmişdir. Zəlzələdən əziyyət çəkmiş Şamaxı, İsmayıllı, Ağsu rayonlarının sakinləri üçün minlərlə ev tikilmişdir. Bu böyük zəlzələnin fəsadlarının mütləq əksəriyyəti cəmi 10 ay ərzində aradan qaldırıldı. Bu da unikal məsələdir, çünki bu, bizim niyyətimizi, gücümüzü göstərir. Azərbaycan dövləti və rəhbərlik bir daha göstərdi ki, hər zaman vətəndaşların yanındadır.

Bu il TANAP layihəsi istismara verildi, bu, tarixi layihədir. TANAP artıq Avropa İttifaqı sərhədinə çatdırıldı. Biz bu tarixi hadisəni bu ilin noyabr ayında böyük təntənə ilə qeyd etmişik. TANAP "Cənub qaz dəhlizi"nin bir hissəsidir. "Cənub qaz dəhlizi" 4 layihədən ibarətdir və onlardan 3-ü - "Şahdəniz-2", Cənubi Qafqaz Qaz Kəməri və TANAP artıq reallığa çevrildi. Dördüncü layihə - TAP, o da artıq uğurla icra edilir və bu layihənin icra səviyyəsi 90 faizi ötübdür. Biz Avropanın, Avrasiyanın energetika və nəqliyyat xəritəsini yenidən cızırıq. Biz bu layihənin təşəbbüskarı olmuşuq. Biz əsas yükü - həm maliyyə, həm texniki məsuliyyəti öz üzərimizə götürmüşük və tərəfdaşlarla birlikdə bu nəhəng və böyük əhəmiyyət kəsb edən layihəni uğurla icra edirik.

Bu il turizm sahəsində rekord il olmuşdur. Bizim apardığımız siyasət, ölkəmizin inkişafı, ölkəmizdə hökm sürən təhlükəsizlik, əmin-amanlıq, Azərbaycanda keçirdiyimiz böyük mötəbər tədbirlərin nəticəsində bu il tarixdə ilk dəfə olaraq 3 milyondan artıq turist Azərbaycana səfər etmişdir.

Bu il 10 milyonuncu vətəndaş dünyaya gəldi. Bu da böyük tarixi hadisədir. Müstəqillik dövründə bizim əhalimiz 3 milyondan çox artmışdır. Bu, bizim həm gücümüzü, həm də məsuliyyətimizi artırır. Çünki artan əhali böyük üstünlükdür, eyni zamanda, iqtisadi artım artan əhalini daim qabaqlamalıdır. Artan əhali o deməkdir ki, yeni məktəblər, yeni uşaq bağçaları, yeni xəstəxanalar tikilməlidir, yeni iş yerləri yaradılmalıdır. Beləliklə, Azərbaycanın əhalisi artdıqca gücü də artır. Bu il dünyaya gələn gözəl Mehriban balamız bizim hamımızı sevindirdi. Allah onu xoşbəxt eləsin, Allah bütün uşaqlarımızı xoşbəxt eləsin, Allah bütün balalarımızı qorusun.

Bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara öz səmimi salamlarımı çatdırıram. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb.

Əziz həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# V.T.Novruzovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında auditor xidməti sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Vahid Tapdıq oğlu Novruzov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 yanvar 2020-ci il*

# Ə.C.Əhmədzadənin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında meliorasiya və su təsərrüfatı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Əhməd Cuma oğlu Əhmədzadə 1 ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 yanvar 2020-ci il*

# Ağcabədi rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağcabədi rayonunun əhalisi 83682 nəfər olan 20 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 30 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün nəzərdə tutulmuş vəsaitin 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 yanvar 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 yanvar tarixli Sərəncamına Əlavə

## Ağcabədi rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 1. | Ağcabədi şəhəri | 1 | 42768 |
| 2. | Aran kəndi | 1 | 2118 |
| 3. | Arazbar kəndi | 2 | 1493 |
| 4. | Boyat kəndi | 1 | 1858 |
| 5. | Göyük kəndi | 1 | 918 |
| 6. | Hindarx qəsəbəsi | 3 | 9667 |
| 7. | Xocavənd kəndi | 2 | 3647 |
| 8. | Kəhrizli kəndi | 3 | 2055 |
| 9. | Kürdlər kəndi | 1 | 1022 |
| 10. | Qaraxanlı kəndi | 1 | 980 |
| 11. | Mehrablı kəndi | 1 | 1644 |
| 12. | Minaxorlu kəndi | 2 | 2248 |
| 13. | Muğanlı kəndi | 1 | 1723 |
| 14. | Poladlı kəndi | 1 | 1513 |
| 15. | Salmanbəyli kəndi | 3 | 2539 |
| 16. | Sarıcalı kəndi | 1 | 1816 |
| 17. | Şahsevən kəndi | 1 | 456 |
| 18. | Şahsevən Təzəkənd kəndi | 1 | 834 |
| 19. | Şərəfxanlı kəndi | 1 | 896 |
| 20. | Yuxarı Qiyaməddinli kəndi | 2 | 3487 |
| Cəmi | | 30 | 83682 |

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2020-ci ilin yanvar ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**16 yanvar 2020-ci il**

1. Siyəzən rayonu
2. Yardımlı rayonu
3. Ağsu rayonu
4. Ağcabədi rayonu
5. Daşkəsən rayonu

**30 yanvar 2020-ci il**

1. Naftalan şəhəri
2. Qax rayonu
3. Sabirabad rayonu
4. Laçın rayonu
5. Şəmkir rayonu

**Qeyd:** qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

# V.C.Əhmədovun "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Cəbrayıl oğlu Əhmədov "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 yanvar 2020-ci il*

# V.C.Əhmədovun "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Vüqar Cəbrayıl oğlu Əhmədov "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 yanvar 2020-ci il*

# 13 səfər, 22 yeni obyektin açılışı

## Regionların sosial-iqtisadi inkişafı 2019-cu ildə də Prezident İlham Əliyevin fəaliyyətinin prioritetlərindən olub

Əvvəli 1-ci səh.

**Şamaxı** - Şəhriyar qəsəbəsində yeni inşa olunmuş 4 saylı körpələr evi-uşaq bağçası; sayca 16-cı "ASAN Həyat" kompleksi; Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsi.

**Beyləqan** - Olimpiya İdman Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, "Beyləqan-1" elektrik yarımstansiyası, "N" saylı hərbi hissəsi.

**Ağdaş** - Biyan Sənaye Parkı, elektrik yarımstansiyası, "Şəbəkə" Xidmət Mərkəzi, şəhərin içməli su təchizatı və kanalizasiya sistemləri layihəsi, yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolu.

**Qobustan** - Mərkəzi Xəstəxana, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobustan filialı və "Azərxalça" ASC-nin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi.

**Qəbələ** - "Azərxalça" ASC-nin Qəbələ regional filialı, Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri layihəsi; Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolu.

**Şamaxı, Ağsu və İsmayıllı** rayonları üzrə zəlzələdən zərər çəkənlərə 580 fərdi yaşayış evi tikilib təhvil verildi. Bundan başqa Şamaxıda 4 mərtəbəli 44 mənzilli, 5 mərtəbəli 20 mənzilli və 5 mərtəbəli 110 mənzilli yaşayış binaları tikildi.



### Hər zaman vətəndaşın yanında

İlin əvvəlində respublikanın şimal bölgəsində baş verən zəlzələ bir qədər üzücü xəbər olsa da, təbii fəlakətin fəsadlarının aradan qaldırılması ilə bağlı Ağsu, Şamaxı və İsmayıllıda qısa zamanda görülən işlər hər kəsdə sevinc-qürur hissi yaratdı.

Prezident İlham Əliyevin zəlzələdən dərhal sonra bölgəyə səfəri, çarəsiz durumda qalan sakinlərin yanında olub təskinlik verməsi tək onları deyil, bütün ölkə əhalisini sevindirdi. Hər kəs bir daha əmin oldu ki, verdiyi vədlərə sadiqliyi ilə hər zaman xalqın sevimli liderinə çevrilən cənab İlham Əliyev xoş gündə olduğu kimi, dar gündə də vətəndaşın yanındadır. Bu, dövlət başçısının prinsipial iş tərzidir.

Fevralın 5-6-da şimal bölgəsində baş verən təbii fəlakət Şamaxı, Ağsu və İsmayıllı rayonlarına ciddi ziyan vurdu. Ölkə rəhbəri zəlzələnin fəsadlarının qısa bir zamanda aradan qaldırılması ilə bağlı sərəncam imzaladı və bir gün sonra, fevralın 7-də Şamaxıya səfər edərək evi qəzalı duruma düşən insanlara böyük təsəlli verdi.

Dövlət başçısı həmin səfərində Saray nənənin dağılmış evinə baş çəkib ağbirçək ana ilə söhbətləşdi və söz verdi ki, bir aya ona əvvəlkindən də möhtəşəm ev tikiləcək. Hər zaman verdiyi vədlərə əməl etdiyini təsdiqləyən dövlət başçısı bir ay sonra, mart ayında yenidən Şamaxı və Ağsuya gələrək bir neçə rayon sakininin yeni mənzilinə baş çəkdi. Saray nənə ilə yeni mənzilində görüşdü və hal-əhvalı ilə maraqlandı.

Prezident zəlzələdən zərər çəkən sakinlər üçün hündürmərtəbəli binaların tikilməsi ilə bağlı sərəncam imzaladı.

Ağsuda vətəndaşların şikayətlərini dinləyən cənab İlham Əliyev qəbul etdiyi bütün məktubların diqqətlə nəzərdən keçiriləcəyini söylədi. Bu proseslər dövlət başçısının bir daha dar gündə xalqın yanında olduğunu, onun problemlərinin həlli üçün daim çalışdığını təsdiqlədi.













Dekabrın 5-də 3-cü dəfə Şamaxıya səfər edən Prezident zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış oldu.

Hər səfərində əhali ilə səmimi görüşlər keçirən, insanları səbir və təmkinlə dinləyən, şəkil çəkdirən dövlət başçısı Beyləqan səfərində vətəndaşlarla birgə "Azərbaycanım" mahnısını da ifa etdi.

Sumqayıta səfəri zamanı Dənizkənarı parkda cənab İlham Əliyevin vətəndaşlarla bir yerdə olması, onlara arxalanması, xalqın arzu və təkliflərinə, istəklərinə vaxtında cavab verməsi hər kəsi bir daha qürurlandırdı.

Bütün bunlar bir daha təsdiqləyir ki, vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən və dərhal həlli üçün qəti tapşırıqlar verən Prezident İlham Əliyevin bu addımları ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir, xalqın Prezidentinə olan inamını, etimadını daha da artırır. Çünki hər kəs şahiddir ki, Azərbaycan Prezidentinin fəaliyyəti xalqa və dövlətə layiqli xidmət prinsipi üzərində qurulub.

### Bölgələrin inkişafı - rekord turist axını

Respublikamızın bölgələrinə səfərləri çərçivəsində cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir sıra tədbirlərdə də iştirak ediblər. Şamaxıya səfəri zamanı onlar Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu bu rayonda keçirilən ağacəkmə aksiyasına qatılıblar. Eyni zamanda Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar.

Sumqayıta səfəri çərçivəsində cənab Prezident şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edərək müasir Sumqayıtın sürətli inkişafı, şəhərdə həyata keçirilən möhtəşəm layihələr, açılan yeni iş yerləri, vətəndaşların sosial rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb və qarşıdakı layihələr barədə geniş məlumat verib.

Prezident, həmçinin Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olub. Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsindən başlayaraq inşası ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlərin davamlı xarakter aldığını göstərir. "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin tərkib hissəsi olan bu yolun inşası sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərinin daha da yaxşılaşdırılması ilə yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" ilə yük və sərnişin daşımalarında əsas rol oynayacaq. Həmçinin yük həcminin çoxalmasına və gəlirlərin artmasına, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına, ümumilikdə respublikamızın iqtisadi inkişafına töhfə verəcək.

"Şahdağ" Turizm Mərkəzində görülən işlər də diqqəti çəkir. Dekabrın 27-də dövlət başçısı, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva bu mərkəzə baş çəkərək yeniliklərlə maraqlanıblar. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşən "Şahdağ" Turizm Mərkəzinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" Turizm Mərkəzi oxşar istirahət məkanlarından bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır.

Onu da xüsusi olaraq vurğulayaq ki, ötən il Azərbaycanda turizm sahəsində rekord il olub. Aparılan böyük mötəbər tədbirlərin nəticəsində ötən il tarixdə ilk dəfə olaraq 3 milyondan artıq turist Azərbaycana səfər edib.





### IV Dövlət Proqramı və regionların dəyişən siması

Artıq uzun müddətdir ki, Azərbaycanın iqtisadi inkişaf mərkəzi paytaxt Bakıdan regionlara keçib. Genişmiqyaslı dövlət proqramlarının həyata keçirilməsi regionlarda istehsal və sosial infrastruktur obyektlərinin yaranması, yeni iş yerlərinin açılması ilə nəticələnib.

Ümumiyyətlə, son 16 il ərzində regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində əldə edilmiş nailiyyətlərə nəzər yetirdikdə görürük ki, həqiqətən Azərbaycan tarixi uğurlara imza atıb. Hazırda ölkədə regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramı icra olunmaqdadır. Dövlət proqramında kənd təsərrüfatı və sənaye istehsalı xüsusi yer tutur. Çünki həyata keçirilən infrastruktur layihələrinin böyük hissəsi başa çatdığı üçün iqtisadiyyatın real sektoru kənd təsərrüfatı, sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir.

Bununla yanaşı, kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması müddətinin 2021-ci il yanvarın 1-dək uzadılması bu sahəyə necə diqqət göstərildiyini bir daha təsdiqləyir.

İlkin hesablamalara görə, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir.

Regionların inkişafını özündə ehtiva edən proqramların vaxtında və yüksək səviyyədə icra olunması Azərbaycanın ümumi iqtisadi gücünü artırmaqla yanaşı, istehsal müəssisələrinin fəaliyyətinin bərpasına, yeni istehsal sahələrinin yaradılmasına, yerli resurslardan istifadənin səmərəsinin artırılmasına, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasına, aqrar sektorda islahatların sürətləndirilməsinə yol açıb. Bölgələrdə aqrar sektorun inkişafına töhfə verəcək çoxlu sayda yeni müəssisələr fəaliyyətə başlayıb.

Bir sözlə, uğurla icra edilən dövlət proqramları ölkəmizin inkişafında mühüm rola malik olmaqla yanaşı, vətəndaşlarımızın sosial rifahının yüksəlişində də əsaslı yer tutur. Hər kəsə məlumdur ki, həyata keçirilən dövlət proqramları regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin açılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır.

Əminliklə deyə bilərik ki, bu il də Azərbaycanın hər bir şəhərində, rayonunda, qəsəbə və kəndində quruculuq-abadlıq işləri davam edəcək. Yeni qəbul olunan dövlət proqramına uyğun regionların daha da inkişafı istiqamətində mühüm işlər görüləcək ki, bu da bölgələrin yüksəlişinə səbəb olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*











# 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı təsdiqlənib

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sərəncamı ilə "20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, tədbirlər planı Azərbaycan Respublikası Prezidentinin 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında 2019-cu il 13 dekabr tarixli sərəncamına əsasən hazırlanıb.

Plana əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar gününün Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlər, 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələr təşkil ediləcək, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar, bədii və sənədli filmlər nümayiş olunacaq. 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılacaq.

Dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması, nəşri və yayılmasının təmin olunması barədə müvafiq qurumlara tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün təhsil müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar şəhidlərinin ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

# Bahadır Hüseyn oğlu Tağıyev



Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Fizika sahəsində tanınmış alim, Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Bahadır Hüseyn oğlu Tağıyev 2020-ci il yanvarın 7-də ömrünün 86-cı ilində vəfat etmişdir.

Bahadır Tağıyev 1934-cü il mart ayının 13-də Masallı rayonunun Türkoba kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1952-1956-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində ali təhsil almış, 1959-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunun aspiranturasına daxil olmuş və 1960-1962-ci illərdə aspirantura təhsilini SSRİ Elmlər Akademiyasının Leninqraddakı Yarımkeçiricilər İnstitutunda davam etdirmişdir.

Əmək fəaliyyətinə 1956-cı ildə Masallı rayonunda başlayan Bahadır Tağıyev 1959-cu ilədək burada kənd və qəsəbə orta məktəblərində müəllim işləmişdir. O, 1962-ci ildən taleyini Azərbaycan Elmlər Akademiyası ilə bağlayaraq, akademiyanın Fizika İnstitutunda 1966-cı ilədək kiçik elmi işçi, 1966-1974-cü illərdə böyük elmi işçi, 1974-1993-cü illərdə laboratoriya müdiri olmuş, 1993-2002-ci illərdə institut direktorunun birinci müavini, 2002-ci ildən institutun baş elmi işçisi, problem şurasının rəhbəri vəzifələrində çalışmışdır. Bahadır Tağıyev, eyni zamanda, 1996-2009-cu illərdə Milli Aviasiya Akademiyasında fizika fakültəsinin professoru vəzifəsində işləmiş, 2009-cu ildən bu akademiyanın Elmi-Tədqiqat Nəqliyyat və Aviakosmik Problemləri İnstitutunun direktoru və fizika kafedrasının müdiri olmuşdur.

Bahadır Tağıyev 1964-cü ildə fizika-riyaziyyat elmləri üzrə namizədlik, 1977-ci ildə isə doktorluq dissertasiyaları müdafiə etmiş, 1984-cü ildə professor elmi adı almışdır. O, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Bahadır Tağıyev yarımkeçiricilər fizikası, texnologiyası və texnikası sahəsində səmərəli fəaliyyəti ilə respublikada fizika elminin inkişafına sanballı töhfələr vermiş alimlərdəndir. O, binar və mürəkkəb tərkibli yarımkeçirici birləşmələrin kristallarının alınması, onlarda yüksək elektrik sahə effektlərinin, lüminessensiya hadisələrinin öyrənilməsi, yeni lüminoforların və işıq mənbələrinin yaradılması istiqamətində mühüm elmi-texniki nəticələr əldə etmişdir. Həmin nəticələrdən yarımkeçiricilərdə və dielektriklərdə qüvvətli sahədə elektrikkeçirmənin nəzəri əsaslandırılması və nadir torpaq elementlərinin atomdaxili elektron keçidlərinin hesablanması zamanı geniş istifadə olunmuşdur. Alimin rəhbərliyi altında elektromaqnit şüaları ilə idarə olunan yaddaş elementləri, yüksək modulyasiya əmsallı qəbuledicilər, fotodiodlar və digər çeviricilər yaradılıb tətbiq edilmişdir.

Bahadır Tağıyev ölkəmizdə və onun hüdudlarından kənarda işıq üzü görmüş 350-dən artıq elmi əsərin, çox sayda müəlliflik şəhadətnaməsi və patentlərin müəllifidir. Onun rəhbərliyi ilə 40-a yaxın fəlsəfə doktoru və elmlər doktoru yetişdirilmişdir. Beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları ilə Azərbaycan elmini uğurla təmsil edən Bahadır Tağıyevin fundamental araşdırmalarını bir sıra ölkələrin mötəbər elmi dairələri yüksək dəyərləndirmişdir.

Akademik Bahadır Tağıyevin elmi, elmi-təşkilatçılıq və pedaqoji fəaliyyəti dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1988-ci ildə Azərbaycan Respublikasının Dövlət Mükafatını almış, 2005-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuş, 2018-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Tanınmış alim, bacarıqlı elm təşkilatçısı və pedaqoq Bahadır Hüseyn oğlu Tağıyevin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Oqtay ƏSƏDOV, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Ramiz MEHDİYEV, Ceyhun BAYRAMOV, Arif PAŞAYEV, İbrahim QULİYEV, Nazim MƏMMƏDOV, Cavad ABDİNOV, Telman ƏLİYEV***

# Azərbaycan nümayəndə heyəti Türkiyə Milli İstihbarat Təşkilatının yeni inzibati binasının açılışında iştirak edib




Yanvarın 6-da Ankarada Türkiyə Respublikasının Milli İstihbarat Təşkilatının (MİT) Mərkəzi Aparatının "Qala" yeni inzibati binasının təntənəli açılışı olub.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı, MİT-in rəhbəri Hakan Fidanın dəvəti ilə DTX-nın rəisi, general-leytenant Əli Nağıyevin və Xarici Kəşfiyyat Xidmətinin rəisi, general-leytenant Orxan Sultanovun rəhbərlik etdikləri nümayəndə heyətləri də təntənəli mərasimdə iştirak ediblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış edərək qardaş ölkənin xüsusi xidmət orqanlarının keçdiyi tarixi yola nəzər salıb, hazırda MİT-in qarşısında duran mühüm vəzifələrdən, eləcə də Türkiyənin maraqlarının və təhlükəsizliyinin etibarlı təmin olunması istiqamətində görülən işlərdən danışıb. Dövlət başçısı "Qala"nın istifadəyə verilməsi münasibətilə Milli İstihbarat Təşkilatının əməkdaşlarını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Yeni binanın açılışını bildirən rəmzi lentin kəsilməsi mərasimində Türkiyə Respublikasının ali dövlət rəhbərliyi, hökumət üzvləri və digər rəsmi şəxslərlə yanaşı, general-leytenant Əli Nağıyev və general-leytenant Orxan Sultanov da iştirak ediblər.

Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin təmsilçiləri ilə görüşüb. Azərbaycan nümayəndə heyətlərinin rəhbərləri dövlətimizin başçısı İlham Əliyevin Türkiyə Respublikasının Prezidentinə səmimi salamlarını və təbrikini çatdırıblar, eləcə də dost və qardaş ölkəyə milli təhlükəsizliyin hərtərəfli təmin olunması işində yeni-yeni uğurlar arzulayıblar.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi salamlarını yetirib, təbrikə və xoş diləklərə görə təşəkkürünü bildirib.

# Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti dəfə təxribat törədiblər

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədindəki təmas xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla növbəti dəfə təxribat törədiblər.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 7-də saat 14:56 radələrində Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində düşmən tərəfindən snayper tüfəngindən açılan atəş nəticəsində sərhədçi əsgər Fərzəliyev Fərzəli Əlimürsəl oğlu şəhid olub.

DSX rəisi general-polkovnik Elçin Quliyev və digər rəhbər vəzifəli zabitlər hadisə yerindədirlər. Hazırda Hərbi Prokurorluq ilə birgə zəruri tədbirlər həyata keçirilir.

# Ermənistan ordusunun bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Yanvarın 7-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə komissiyanın yanvarın 2-də və 4-də keçirilmiş iclaslarının protokolları təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Maraqlı subyektlərin və səlahiyyətli nümayəndələrin iştirakı ilə müraciətlər komissiya üzvləri tərəfindən geniş müzakirə edilərək müvafiq qərarlar qəbul olunub.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda seçkilərlə bağlı cari məsələlərə də baxılıb.

# ATƏT DTİHB Azərbaycanda parlament seçkilərini müşahidə missiyasına başlayıb

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) Azərbaycanda parlament seçkilərini müşahidə missiyasına başlayıb.

AZƏRTAC xəbər verir ki, ATƏT DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri səfir Piter Teyler bununla əlaqədar yanvarın 7-də Bakıda mətbuat konfransı keçirib.

Piter Teyler bildirib ki, ATƏT DTİHB-nin müşahidə missiyası fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar hökumətin müraciəti əsasında bu ölkəyə gəlib. Azərbaycan ATƏT-ə üzv ölkə kimi rəsmi olaraq Demokratik Təsisatlar və İnsan Haqları Bürosuna müraciət göndərib ki, seçkilərdə müşahidə aparsın. Bu müraciətə əsasən, missiya dekabrın ortalarında seçki mühitini dəyərləndirmək üçün Azərbaycana gəlib. Seçkiləri müşahidə missiyasına əsas heyətdən əlavə uzunmüddətli və qısamüddətli müşahidəçilər də cəlb olunacaq.




"ATƏT DTİHB artıq 11-ci dəfədir ki, Azərbaycanda müşahidə aparacaq. İndiyə qədər Azərbaycanda seçki prosesində iştirak edən qurumlarla konstruktiv əməkdaşlıq etmişik və ümidvarıq ki, bu dəfə də konstruktiv mühitdə əməkdaşlıq edəcəyik", - deyə o əlavə edib.

Diqqətə çatdırılıb ki, missiyaya 30 uzunmüddətli, 350 qısamüddətli müşahidəçi cəlb olunacaq.

# Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Tovuzda azyaşlı qızın qətlə yetirilməsi ilə bağlı birgə məlumat yayıb

Tovuz rayonunun Dondar Quşçu kənd sakini 10 yaşlı Nərmin Quliyevanın 2019-cu il noyabrın 21-də itkin düşməsi və bu il yanvarın 6-da yanmış meyitinin tapılması ilə əlaqədar sosial şəbəkələrdəki bəzi səhifələrdə həmin azyaşlının gec tapılmasında hüquq mühafizə orqanlarını məqsədli və qərəzli olaraq ittiham etməyə cəhdlər göstərilir.

Daxili İşlər Nazirliyinin (DİN) və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, 2019-cu il noyabrın 21-də saat 23 radələrində vətəndaş Şərif Quliyev Daxili İşlər Nazirliyinin "102 Xidməti"nə zəng edərək qızı Nərmin Quliyevanın evdən getməsi və geri qayıtmaması barədə məlumat verib, həmçinin eyni məzmunlu ərizə ilə Tovuz Rayon Polis Şöbəsinə müraciət edib.

Polisdə dərhal lazımi araşdırmalara başlanılaraq Şərif Quliyevin və aidiyyəti kənd sakinlərinin izahatı alınıb, yaşadığı evə baxış keçirilib, zəruri əməliyyat tapşırıqları verilib və toplanmış materiallar 2019-cu il noyabrın 28-də Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsinə göndərilib.

Aparılmış araşdırmalarla Nərmin Quliyevanın qəsdən öldürülməsinə kifayət qədər əsaslar müəyyən edildiyindən həmin tarixdə Cinayət Məcəlləsinin 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanılaraq Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb, habelə Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin kinoloji qrupunun təlimatçıları xüsusi təlim keçmiş itlərlə Dondar Quşçu kəndi və ətraf ərazilərdə axtarışlara cəlb ediliblər.

Yanvarın 6-da azyaşlının meyitinin aşkar olunması ilə əlaqədar dərhal Daxili İşlər Nazirliyinin, Baş Prokurorluğun rəhbər vəzifəli şəxsləri və digər əməkdaşları, eləcə də Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinin təcrübəli mütəxəssisləri Tovuz rayonuna ezam olunublar.

Müəyyən edilib ki, Şərif Quliyev 2019-cu il noyabrın 21-də saat 14:00 radələrində özünə məxsus gödəkçəni gətirmək üçün qızı Nərmin Quliyevanı həmin kənddə yaşayan qardaşının evinə göndərib və Nərmin Quliyeva əmisinin evinə gedib oradan çıxdıqdan sonra naməlum şəraitdə itkin düşüb.

2020-ci il yanvarın 6-da saat 19:30 radələrində isə kənd sakini İlkin Süleymanov evlərindən təxminən bir kilometr aralıda Nərmin Quliyevanın meyitini aşkar edib və bu barədə dərhal polisə məlumat verib.

Təxirəsalınmadan hadisə yerinə və meyitə mərhumun atasının və əmisinin iştirakı ilə baxış keçirilib, iş üzrə məhkəmə-tibbi, kriminalistik, bioloji, kimyəvi ekspertizalar təyin edilib, çoxsaylı şahidlər dindirilib, aidiyyəti orqanlara sorğular və əməliyyat tapşırıqları göndərilib.

Cinayətin qısa müddətdə açılması və onu törətmiş şəxsin yaxud şəxslərin müəyyənləşdirilməsi üçün intensiv istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri keçirilir. Nəticələr barədə əlavə məlumat veriləcək.

# İlahiyyat İnstitutunda imtahan sessiyası başladı

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) payız semestrinin qış imtahan sessiyasına start verilib. AİI-nin rektoru Ceyhun Məmmədov auditoriyalarda imtahan gedişatını izləyib.

Yanvarın 31-dək davam edəcək sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq yazılı, zəruri hallarda isə şifahi formada keçirilir. Sessiya dövründə tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi, şəffaflığın təmin edilməsi prioritet seçilib. İmtahanlar keçirilərkən təhlükəsizlik tədbirlərinin görülməsi, cavabların müəyyənləşdirilmiş meyarlar əsasında qiymətləndirilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Qeyd edək ki, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə Operativ Qərargah yaradılıb. Qərargaha daxil olan müraciətlərin, hər bir şikayətin qısa müddətdə çevik şəkildə araşdırılıb, lazımi tədbir görülməsi nəzərdə tutulub.

İnstitutun foyesində müraciət və təkliflər qutuları yerləşdirilib. Tələbələrə yarana biləcək problemlərin aradan qaldırılması üçün yaxından kömək göstərilməsi məqsədilə şərait yaradılıb.

Sessiya dövründə imtahanlar ictimaiyyətə açıq keçiriləcək. İmtahan sessiyası dövründə valideynlərin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə "Açıq qapı" günlərinin keçirilməsi nəzərdə tutulub.

Ali təhsil müəssisəsinin kitabxanasında tələbələrin imtahanlara hazırlığı üçün lazımi şərait yaradılıb. Onlar fasiləsiz internetlə təchiz olunmuş kompüterlərdən istifadə edə biləcəklər.

Məlumat üçün bildiririk ki, institutun 2019-2020-ci tədris ili qış imtahan sessiyası yazılı və şifahi olaraq, imtahanlar arasında müddət isə iki gün intervalla keçiriləcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Akademik Bahadır Tağıyev son mənzilə yola salınıb

Yanvarın 7-də Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasında akademik Bahadır Tağıyevlə vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, vida mərasimində Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyev, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, ziyalılar, elmi ictimaiyyətin və müxtəlif dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Mərhumun cənazəsi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) binasında matəmsayağı bəzədilmiş salonda postament üzərinə qoyulmuşdu. Alimin tabutu ətrafına hökumət təşkilatları və müxtəlif kollektivlər adından əklillər düzülmüşdü.

Salonda həzin matəm musiqisi səslənirdi.

Akademik Bahadır Tağıyevin həmkarları, dostları, tanışları və tanınmış elm xadimləri axın-axın akademiyanın binasına gəlir, görkəmli alim və gözəl insanla vidalaşırdılar.

AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev görkəmli alimin mənalı ömür yolundan, elmi və pedaqoji fəaliyyətindən, qazandığı nailiyyətlərdən danışıb. Bildirib ki, akademik Bahadır Tağıyev yarımkeçiricilər fizikası, texnologiyası və texnikası sahəsində səmərəli fəaliyyəti ilə respublikada fizika elminin inkişafına sanballı töhfələr vermiş alimlərdəndir. Onun rəhbərliyi ilə mühüm elmi tədqiqat işləri aparılıb, habelə 40-a yaxın fəlsəfə doktoru və elmlər doktoru yetişdirilib. Elmi, elmi-təşkilatçılıq və pedaqoji fəaliyyəti dövlət tərəfindən layiqincə qiymətləndirilən alim 1988-ci ildə Azərbaycan Respublikasının Dövlət Mükafatını alıb, 2005-ci ildə "Şöhrət" ordeni ilə təltif olunub, 2018-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Bahadır Tağıyev 1964-cü ildə fizika-riyaziyyat elmləri üzrə namizədlik, 1977-ci ildə isə doktorluq dissertasiyaları müdafiə edib, 1984-cü ildə professor elmi adı alıb. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib.





Fizika İnstitutunun elmi işlər üzrə direktor müavini, akademik Cavad Abdinov Azərbaycan elminə dəyərli töhfələr verən Bahadır Tağıyevin alim, pedaqoq adını hər zaman uca tutduğunu deyib. Bildirib ki, Azərbaycan ziyalılığının mükəmməl mücəssəməsi olan B.Tağıyev ölkəmizin ictimai-siyasi həyatında, elmi-pedaqoji mühitində fəallığı ilə seçilib. O, binar və mürəkkəb tərkibli yarımkeçirici birləşmələrin kristallarının alınması, onlarda yüksək elektrik sahə effektlərinin, lüminessensiya hadisələrinin öyrənilməsi, yeni lüminoforların və işıq mənbələrinin yaradılması sahələrində mühüm elmi-texniki nəticələr əldə edib. Alimin rəhbərliyi altında elektromaqnit şüaları ilə idarə olunan yaddaş elementləri, yüksək modulyasiya əmsallı qəbuledicilər, fotodiodlar və digər çeviricilər yaradılaraq tətbiq edilib. Beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları ilə Azərbaycan elmini uğurla təmsil edən akademikin fundamental araşdırmalarını bir sıra ölkələrin mötəbər elmi dairələri yüksək dəyərləndirib.

İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev Bahadır Tağıyevin elmi fəaliyyətinə nəzər salıb, onun xatirəsinin gələcək nəsillərin qəlbində daim yaşayacağını vurğulayıb.

Milli Aviasiya Akademiyasının prorektoru, professor Ədalət Səmədov bildirib ki, Bahadır Tağıyev 1996-2009-cu illərdə Milli Aviasiya Akademiyasında fizika fakültəsinin professoru vəzifəsində işləyib, 2009-cu ildən bu akademiyanın Elmi-Tədqiqat Nəqliyyat və Aviakosmik Problemləri İnstitutunun direktoru və fizika kafedrasının müdiri olub. Görkəmli alim akademiyada həm tədris prosesində, həm də elmi işlərin həyata keçirilməsində yaxından iştirak edib. Onun rəhbərliyi ilə bir çox elmi, tətbiqi işlər yerinə yetirilib, müxtəlif nazirlik, təşkilat və şirkətlərlə müqavilələr bağlanıb. Bahadır Tağıyev Elmi-Tədqiqat Nəqliyyat və Aviakosmik Problemləri İnstitutunda görülən işlərin nəticələrinin təhsildə də tətbiqinə böyük önəm verib. Habelə Ümumi və tətbiqi fizika kafedrasının müdiri olaraq iki laboratoriya yaradıb. Alimin rəhbərliyi ilə tədris prosesində istifadə üçün çoxlu sayda elmi-metodiki vəsaitlər çap olunub. Bahadır Tağıyev hər zaman gənc nəslin inkişafına, onların elmi biliklərə yiyələnməsinə böyük diqqət yetirib.

Mərhum akademikin ailə üzvləri adından oğlu professor Oqtay Tağıyev çıxış edərək mərasim iştirakçılarına təşəkkürünü bildirib.

Sonra görkəmli alimin cənazəsi son mənzilə yola salınıb.

Mərhum ikinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Allah rəhmət eləsin!

# Sözün adamı

## ◆ Ömür səhifələri

**"İndiyə qədər xatirələrimin ayrı-ayrı epizodlarını qələmə almışam. Son illər tez-tez fikirləşirəm ki, daha əyləşib bütün ömrü yazıya çevirmək vaxtıdır axı, niyə yubanırsan?! Ola bilər, Hüseynbala adlı bir Allah bəndəsinin həyatı indi çoxuna maraqsız mətn kimi gəlsin. Amma illər sonra belə mətnlər yaşadığımız dövrü öyrənməkdən ötrü əvəzsiz material olacaq. Ona görə imkanım olsa, hamıdan xahiş edərdim ki, gündəlik yazmağa ərinməsinlər. Baxmayaraq ki, özüm də buna çox az əməl edə bilmişəm. İndi buna görə çox heyifslənirəm.**
**Deyəsən, Lermantovun sözüdür. Deyir, əgər bir insanın ömrünü əvvəldən axıra qədər qələmə ala bilsən, bu, böyük bir xalqın tarixindən də geniş və maraqlı alınar. Amma insanın nəinki bütün ömrünü, heç bircə günlük həyatını, düşüncələrini də tam dəqiqliklə yazıya almaq mümkün deyil. İnsan o qədər maraqlı varlıqdır ki..."**



### Sözün işığı

*O, söz sərrafı, söz xiridarıdır. Sözün ilahi yükünün dəyərini bilir. Bilir ki, bu dünyada əvvəl müqəddəs söz yaranıb. Bu həyatda onu yazmaq qədər məmnun edən ikinci nəsə yoxdur və bu, ürəyinin səsidir...*

*İnsanın sahib olduğu dəyərləri çox vaxt elə üzündən də oxumaq olur. Xüsusilə adam yaşlananda bu, daha açıq şəkildə özünü büruzə verir. Belələri haqqında deyərdilər ki, "elə bil üzündən nur yağır".*

*Görünür, ziyalı sözündəki ziya da elə bu nurdan gəlir...*

*Hüseynbala Mirələmovun çöhrəsində də belə bir işıq var...*

*Bu, onun uşaqlıqdan bəri könül verdiyi Sözün işığıdır...*

*Ulularin öyüdlərindən, ustadların dərslərindən, elmin-kitabın göstərdiyi yoldan, böyük həyat təcrübəsindən şəxsiyyətində formalaşmış dəyərlərin işığı...*

*Elə bu işığın nurunda söhbətimizə başlayaq. "Ömür səhifələri" rubrikasının növbəti qonağı Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri, yazıçı, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kafedra müdiri, texnika elmləri doktoru, professor Hüseynbala Mirələmovdur.*

*Söz onundur...*

### Həyatımı uzun bir yola bənzədirəm

- Bu, bəlkə onunla bağlıdır ki, ömrümün ilk xatirəsi yolla bağlıdır. Hər kəsin ömrünün mütləq ilkin xatirəsi olur, həyat elə o xatirədən başlanır. Mən də həyatımın o ilk anını yaşlandıqca tez-tez xatırlayıram.

1943-cü il... Atam müharibədə ağır yaralanıb qayıtmışdı. O, çox mərd və zirək kişi idi. Necə deyərlər, min əziyyətlə daşdan pul çıxarmağı bacarırdı. Həmişə deyirdi ki, gərək kişinin yorğan-döşəkdə üstünə gün düşməsin, səhər erkəndən durub, ruzi dalınca çıxsın. Onun fərasəti, xırda ticarətlə məşğul olub dolanışıq qurması mərdimazarların xoşuna gəlməyibmiş, işinə pəl vurmaq istəyənlər varmış. Axırda kişi bezib, ailəni Lerikin Nuravud kəndindən Lənkərana köçürmək qərarına gəlir.

İndiki kimi yadımdadır, 1950-ci ilin çiskinli bir mart günü idi. Cəmi beş yaşım vardı. Ev əşyalarımız at arabasına yüklənmişdi. Nuravuddan köçürdük... İki böyük bacım ailəli olduqlarından kənddə qalacaqdılar. Atam və anam da daxil olmaqla ailəmizin yeddi üzvü köçürdü. Biz yola çıxanda bacılarım da gəlmişdilər, ardımızca su atdılar...

Anam yolboyu tez-tez geriyə çevrilib yaylığının ucu ilə gözlərini qurulayırdı. Mənsə arabanın yan-yörəsində qaçırdım, dəcəllik edirdim. Qarşımızda uzanıb gedən yol mənə ucsuz-bucaqsız dünya kimi görünürdü...

Və elə o yol sonradan məni ucsuz-bucaqsız dünyaya qovuşdurdu...

Elə bilirəm ki, o yol o vaxtdan bəri heç bitməyib...



### İnkarı inkar qanunu

- Heç zaman maddi cəhətdən imkanlı biri olmağa çalışmamışam. Bu, əsas məqsədim olmayıb. Uşaqlıqdan bəri anladığım tək bir şey vardı ki, insan ona tapşırılan işi məsuliyyətlə, vicdanla görməlidir. Zəhmət çəkməkdən, əziyyətə qatlaşmaqdan qorxmamalıdır. Bu keyfiyyət həmişə başqaları tərəfindən dəyərləndirilir. Kimsə dəstək olur, kimsə irəli çəkir, beləcə, bir də görürsən ki, yavaş-yavaş öz həyatını qurmusan artıq.

İndi baxırsan, ali məktəbdən yenicə məzun olmuş gəncdir, yaxud heç ali məktəb də bitirməyib. İstəyir ki, elə birdən-birə iki günün içində varlansın, hər şeyi olsun. Daha fikirləşmir ki, bunun üçün əvvəlcə özünü təsdiqləməlidir axı.

Bunu bizə tələbə vaxtı dialektik materializm fənnində öyrətmişdilər. Yaşa doldoqca bu qanunun cəmiyyət həyatında da, konkret bir insanın taleyində də necə işlədiyini görürəm. Bu, inkarı inkar qanunudur. İnsan qısa müddətdə həyatını kəskin şəkildə dəyişməyi qarşısına məqsəd qoysa, onda heç nə alınmaz. Hələ bu niyyətlə bəlkə pis yollara düşüb, cinayətlərə meyil salıb bütün ömrünü də puç edər. Amma insan düşünsə ki, məsələn, mənim atam-anam bunları əldə eləmişdi, mən onlardan çox yox, bir azca yüksəyinə can atmalıyam, onda irəli gedəcək. Soruşa bilərsiniz ki, bəs bunun ən yaxşı yolu nədir?

Cavabım bu olacaq: təhsil, təhsil və yenə də təhsil...

Baxırsan ki, əqrəblər indi burdadır, amma 5 dəqiqədən, yarım saatdan sonra tamam başqa yerdədir. Necə hərəkət etdiyinin fərqində olmursan. Amma öz həyatını ona uyğun nizamlaya bilirsən. Mən cəmiyyətdə gedən inkişaf proseslərini də buna bənzədirəm. Ən düzgün inkişaf tədricən, ilk baxışdan, hiss edilmədən baş verən və insanlara da bu axına qoşulmağa imkan yaradan inkişafdır.

İndi bir anlıq təsəvvür edək ki, saatı götürüb biqəfil onun əqrəblərini bir neçə saat geriyə və ya irəliyə çəkirik. İnsanların həyatı, düşüncəsi, nizamı, planları isə hələ əvvəlki vaxtdadır. Təsəvvür edin ki, nə baş verər?! Aləm qarışar bir-birinə. Ona görə də hələ heç bir xalq kəskin dəyişikliklərdən xeyir tapmayıb. Cəmiyyətdə də təkamül prosesi getməlidir. Nə çox tez, nə də çox gec. Hər şey öz vaxtında...

### Ah, indiki gənclər...

- Belə şikayətləri öz nəslimin nümayəndələrindən tez-tez eşidirəm. Və gülümsəyirəm. Çünki bilirəm ki, bu mövzu bəşəriyyət yarananda bəri gündəmdədir. Səhv eləmirəmsə, hətta qədim papirusların üzərində də o dövrün gənclərindən şikayət məzmunlu cümlələr vardı ki, indiki gəncləri görürsən, heç kimi saya salmırlar. Hər yetən kitab yazır və daha nələr...



"Atalar və oğullar" problemi dünya durduqca duracaq...

Yadıma öz gəncliyimiz düşür... Ötən əsrin 60-cı illəri idi, çox cavan idik hələ. "Bitlz" qrupunu dinlədiyimiz vaxtlar... Çoxları saç düzümünü, pal-paltarını bu qrup üzvlərinin tərzinə uyğunlaşdırmağa çalışırdı. Rayona, evə gedəndə də görürdün, böyüklər danlayırlar ki, bu nə vid-fasondu belə?!

Mənim aləmimdə uşaqlara da, gənclərə də imkan vermək lazımdır ki, öz həyatlarını doya-doya yaşasınlar. Çünki ömrün hər anı insana cəmi bircə dəfə verilir və o, daha geri qayıtmır. Təbii ki, əxlaq normaları, mental xüsusiyyətlər də unudulmamalıdır. Elə dəyərlərimiz var ki, onlar bizim geridə qalmışlığımız deyil, əksinə, üstünlüyümüzdür. Gənclərə mümkün qədər bu üstünlükləri anlatmaq lazımdır ki, pis təsirlərə düşməsinlər. Dəyərləri qoruyub saxlasınlar. Ağsaqqallara, ağbirçəklərə ehtiram bizdə bir qanundur.

Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirlən mərasimdəki nitqində Prezident İlham Əliyev bu barədə çox maraqlı fikir söylədi: "Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir".

Bəli, amma gərək ağsaqqalar da öz sözlərinin, hərəkətlərinin ağırlığını qorusunlar. Kiçiklərin yanında bütün günü latayır danışan, qeybət edən, pis əməllərlə məşğul olan, özünü apara bilməyən yaşlı adama inanın ki, heç kim hörmət etməz və etmirlər də...

Ümumən isə gənclərimizdən qətiyyən narazı deyiləm. Namxuda, çox savadlı, məqsədyönlü, yenilikləri tez bir zamanda mənimsəyən gənclərimiz var. Oxuyurlar, öyrənirlər, özlərini inkişaf etdirirlər, imkanlardan faydalanırlar. Əlbəttə, öz faydasını anlayanları, məsuliyyətini bilənləri, zəhmətdən usanmayanları deyirəm... Nadanlara, məsuliyyətsizlərə, düz yolu qoyub əyri yola üz tutanlara, tənbəllərə isə nə qoca, nə cavan?! Belələri elə bütün yaşlarda eynidirlər...

### Keçmişə görə xiffət keçirmirəm

- Xarakter etibarilə keçmişlə yox, bugünlə yaşayan adamam. Bilirəm ki, bu gün və gələcəkdə baş verənləri izləmək dünənin olub-bitənlərində ilişib qalmaqdan daha maraqlıdır. Amma, düzü, onu da bilmirəm,



keçmişə görə nostalji hisslər keçirməyənlər heç varmı?! Tez-tez keçmiş illərin mahnılarını dinləyirəm. Gənclik dövrümün bəzi sevimli kitabları var ki, onları təkrar-təkrar oxumaqdan doymuram. O illərin filmlərinə baxmaq da çox maraqlıdır. İndi onlar adama tamam başqa cür gəlir.

Fikirləşirsən ki, bu ömür nə zaman ötüb-keçdi belə?!.

Hər halda bizi bu yerlərə gətirib çıxaran keçmişimizdir. Ona görə də keçmişə həmişə sayğı ilə yanaşıram. İnsan gərək ömrünü elə yaşamağa çalışsın ki, öz keçmişində onu utandıracaq nələrsə buraxmasın. Şükürlər ki, buna həmişə əməl etməyə çalışmışam...

Adam gərək təvazökarlığı unutmasın. Hərdən fikirləşirəm ki, həyat hətta layiq olduqlarımdan da çoxunu verib mənə. Ola bilər, məndən də ağıllı, savadlı həmyaşıdlarım vardı, amma bu nəticələri əldə etmək mənə qismət oldu.

Birinci sinfə Lənkərandakı 3 №-li köhnə bir məktəbdə getmişəm. Onda indiki kimi abad, işıqlı məktəblər nə gəzirdi?! Sınıq-salxaq partaların arxasında əyləşirdik. Anamızın çit parçadan tikdiyi çantamız olardı. O sınıq-salxaq partanın arxasından müstəqil dövlətimizin ali qanunvericilik orqanına - Milli Məclis deputatlığına qədər uzun, çətin və şərəfli bir yol keçdim...

Bu mötəbər məclisdə ümumən Azərbaycan xalqının səsini təmsil edən, millətin etimad göstərdiyi 125 nəfərdən biri oldum. Daha bundan da gözəl qismət varmı?!

Hesab edirəm ki, cəmiyyətdə nüfuzum, şöhrətim var. Şübhəsiz, eldə-obada tanınmaqdan, hörmət-izzət sahibi olmaqdan məmnunam və bunu gizlətmirəm. Amma şöhrətpərəst deyiləm. Şöhrət mənim üçün qürur mənbəyi deyil, özünütəsdiqdir və əlavə məsuliyyətdir... Avansdır...

### Səhvlərimdən dərs almışam

- Deyə bilmərəm ki, həyatım başdan-başa elə uğurlardan ibarətdir. Uğursuzluqlarım da çox olub. Hamı kimi xeyli yanlışlıqlara da yol vermişəm. Amma bir şey var ki, bu yanlışlıqları heç vaxt görməzdən gəlməmişəm. Onlardan nəticə çıxarmağa çalışmışam. Səhvlərimdən dərs almışam bacardıqca...

Biz sovet ideologiyasının təsiri altında yetişmiş insanlarıq. Sovetlərin bir çox dəyərlərini özümüz üçün müqəddəsləşdirmişdik. Bu dəyərlərin çoxu puç oldu, bir anlamı qalmadı. İmtina etdik çoxundan. Bir dəyərdən isə heç vaxt vaz keçmədim. O dəyərin adı vicdandır... Müəllimlərimizin də, valideynlərimizin də bizə ən çox aşıladıqları o idi...

Ötüb-keçən illər mənə kifayət qədər həyat təcrübəsi qazandırıb. İndi də düşünürəm ki, vicdan bir insan üçün ən mühüm keyfiyyətdir. Əslində, o, bir insana gərək olan bütün mənəvi-əxlaqi keyfiyyətlərin məcmusudur.

İnsan savadsız ola bilər, hansısa peşəkar qabiliyyətlərində axsaya bilər, yarıtmaz ola bilər, bunları düzəltmək mümkündü. Amma əgər insan vicdansızdırsa, onunla yola getmək çox çətin olacaq...

### Məni xoşbəxt edən nədir

- İnsan elə xəlq olunub ki, bütün ömrü boyu həyatında məmnuniyyət axtarır. Əfsuslar olsun ki, bu axtarış bəzən zərərli vərdişlərə, pis yollara da gətirib çıxarır birilərini... Xoşbəxt insanlar həyatında nəsə böyük sevinclər baş vermiş insanlar deyil. Xoşbəxt insanlar o anı hiss edənlərdir. Həyatın xırdaca sevinclərindən də xoşbəxt olmağı bacaranlardır.

O gün oxuyuram, alimlər hesablayıblar ki, məsələn, tutaq ki, birdən-birə min manat pul qazanmaqla yüz min manat pul qazanmağın insanda yaratdığı xoşbəxtlik əmsalı təxminən eynidir. Çünki bütün hallarda xoşbəxtlik bir andır, bir azdan ötüb keçəcək. O ana tutunub, onu mümkün qədər çox yaşamaq lazımdır.

Bəs məni xoşbəxt edən nədir?! Hərdən bu sualı öz-özümə də verirəm. Şükür ki, həyatımda mənə də, doğmalarıma da xoşbəxtlik gətirən çox nailiyyətlərim olub. Gəncliyimdən üzübəri yüksək vəzifələr, titullar qazanmışam. Gözəl ailəm, ağıllı-kamallı övladlarım, nəvələrim, onların sevincləri... Bunların hər birinə görə həyatdan çox məmnunam.

Amma mənim üçün ən böyük məmnuniyyət sözdür. Hansısa əsərimə son nöqtəni qoyanda, bu, adama inanılmaz xoşbəxtlik bəxş edir. Elə bil hər dəfə dünyaya yenidən gəlirsən.

Elə bu məqamda SÖZLƏ bağlı bir xatirə yadıma düşdü. Bu unudulmaz xatirəni mənə indi Azərbaycan Respublikasının baş naziri postunda çalışan hörmətli Əli Əsədov vaxtilə Ulu Öndərimiz Heydər Əliyevin köməkçisi olarkən danışmışdı. Deyir, bir dəfə cənab Prezidentin kabinetinə daxil olanda "Xəcalət" kitabını oxuduğunu gördüm. Prezident diqqətlə baxdığımı görüb soruşdu: "Əli, sən bu kitabı oxuyubsan?" Dedim ki, xeyir, cənab Prezident, oxumamışam. Amma müəllif mənə də o kitabdan hədiyyə edib, oxuyaram". Dedi ki, "mütləq oxu! Çox yaxşı kitabdır".

...Bax, hər dəfə belə məqamı xatırlayanda o böyük tarixi şəxsiyyətin, dahi İNSANIN sözə-sənətə dəyər verməsi içimi iftixar hissi ilə doldurur.

### Mən niyə yazıram?!

- Söz yox, hələ kimsə mənə belə bir sual ünvanlamayıb. Amma bilirəm ki, belə bir sual çoxlarının fikrindən keçir. Kimi tənə ilə, kimi də nə bilim, bəlkə sadəcə maraqdan...

Yaradıcılıqla azdan-çoxdan tanış olan hər kəs bilir ki, daş daşımaq yazı-pozudan daha asandır. Günlərlə əyləşirsən yazı masasının arxasında, dünyadan, onun fani qayğılarından əlini üzürsən, bircə uğurlu kəlməni tapıb yerinə qoymaqdan ötrü saatlarla xəyalında yerlə-göylə əlləşirsən. Hələ hansısa yazının ilk cümləsini yazana qədər çəkdiyin zillət...

Hərdən zarafatla dostlara deyirəm ki, yaradıcılığın əziyyəti hamilə qadının əzabları kimidir. Hər ikisində dünyaya "övlad" gəlir.

Bəs elə isə mən niyə yazıram?! Bu nə yükdür axı götürmüşəm üzərimə?!

Əslində, bu suala xoşbəxtlik barədə düşüncələrimlə artıq müəyyən qədər cavab verdim. Ona görə yazıram ki, bu həyatda məni yazmaq qədər məmnun edən ikinci nəsə yoxdur. Özümü tanıyandan, kağız-qələmlə ünsiyyətim başlanandan yazmışam, orta məktəbin dördüncü sinfinə gedəndən üzü bəri yazıram və ömür vəfa eləsə, indən sonra da eyni şakərimdən əl çəkən deyiləm.

Bir tərəfdən də, axı yazılanlar qalır...

Elə bilirsiniz, ədəbiyyatın nəhəngləri qarşısında necə kiçik göründüyümü özüm dərk etmirəm?! Çox da gözəl bilirəm bunu!..

Hamıdan çox özüm anlayıram ki, bundan sonra yüz il də yazıb-pozsam Hüseynbala Mirələmovdan Viktor Hüqo, Dostoyevski, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı olası deyil...

Amma yazıb-yaratmaq içimdən, ürəyimdən gələn səsdir...

Olub ki, o səsi boğmağa da çalışmışam. Yazdıqlarımı üzə çıxarmağa utanıb tərəddüd etdiyim vədələrim də olub. Ədəbiyyat biliciləri olan dostlardan həmişə yazdıqlarıma qarşı son dərəcə amansız davranmalarını xahiş etmişəm. Demişəm ki, baxın, bu məsələdə dostluğa-filana yer yoxdur. Tənqidlərinizi əsirgəməyin. Əgər pis yazıramsa, bunu özümə deyin. Amma onlar əksinə, həmişə ruhlandırıblar məni. Əsərlərimdəki zəif yerləri də göstəriblər, eyni zamanda uğurlu məqamları da diqqətə çatdırıblar. Deyiblər ki, yazdıqlarımdan bu qədər bədgüman olmayım.

İndi isə düşünürəm ki, mənim yazıb-yaratmağımın axı kimə nə ziyanı var ki?! Əgər ədəbiyyat aləmində ciddi bir umacağım yoxdursa, böyük iddialarda deyiləmsə, özümü dahi sayıb döşümə döymürəmsə, hər kəs bu yazıb-yaratmaq həvəsinə anlayış göstərsə, yaxşı olar...

Bir də hərdən fikirləşək ki, Nizaminin, Füzulinin, Sabirin vaxtında görün orda-burda nə qədər şeir yazanlar olub. Amma onların arasından yalnız bu sənətkarlar parlayıb və ədəbiyyat tarixində da bu isimlər qalıb. İndi də qoy Azərbaycanda Hüseynbala Mirələmov kimi minlərlə adam yazıçılıqla məşğul olsun...



Əlbət, onların arasından heç olmasa bircə nəfər nə vaxtsa dünya ədəbiyyatı aynasında görünəcək!

### Televizora az baxıram, hər səhər qəzetləri ən azı vərəqləyirəm

- Buna o qədər də vaxtım olmur. Amma xəbər proqramlarını, ictimai-siyasi məzmunlu verilişləri çalışıram ki, daim izləyim. Çünki indi o qədər xəbər portalları yaranıb ki, bilmirsən hansının yazdığına inanasan. Ona görə də ciddi məlumat mənbəyi kimi televiziyalarımıza üstünlük verirəm.

Efirdə bəyənmədiyim verilişlər çoxdur. Bir müddət əvvəl bu mövzuda tənqidi yazım da olmuşdu. Amma xoşagələn, yaddaqalan, öyrədici verilişlər də var, insaf naminə etiraf edək. Ümumiyyətlə, tamaşaçı kimi uzun illərdən bəridir çalışıram ki, ünvanlılıq prinsipinə əməl edim. Yəni özümə lazım olan, mənə nəsə verəcək verilişlərə baxım. Yoxsa vaxtı idarə eləmək çətin olur. Bir də görürsən ki, gününün xeyli hissəsi elə ekran qarşısında uçdu, getdi...

Hər səhər qəzetləri ən azı vərəqləyirəm. Bu, bir qədər də mənəvi ehtiyacdır elə bil... Qəzet vərəqlərinin xışıltısı, mətbəə iyi ruhumu oxşayır. Çox istərdim ki, qəzet mütaliəsi bir çox xarici ölkələrdəki kimi bizdə də bir zövqə çevrilsin. Düzdür, indi internet var, hər şeyi oradan oxumaq olur. Amma, ona qalsa, məsələn, kinoya da evdə baxmaq olur, yeməyi də evdə yemək olur. Buna baxmayaraq bir də görürsən, insanlar ailəlikcə yığışıb gedirlər kinoteatra kinoya baxmağa, yaxud restoranlarda yemək yeməyə. Bu, çox gözəl haldır, inkişaf göstəricisidir. İstərdim ki, hər səhər çayında qəzetlərə nəzər salmaq, axşamlar ailəlikcə kitablar oxumaq, maraqlı söhbətlər etmək bizdə bir ailə ənənəsi olsun. Şükür, əksər ailələrimizin indi buna imkanı çatır. Hər il iki-üç qəzetə abunə yazılmaq ailə büdcəsi üçün elə də yük olmaz. Əvəzində bununla o evdə, ailədə böyüyən uşağın gələcək taleyində bir işıq yanacaq.

### Gərək texnologiyalar insanların arasına girməsin

- Yaş keçdikcə anlayıram ki, bu dünyada insanların hər şeydən çox ünsiyyətə ehtiyacları var. Ona görə də dostluq münasibətlərini, ülfəti, bir-birinə doğma ailələr arasında gəliş-gedişləri qorumaq lazımdır. Yoxsa insanlar getdikcə bir-birindən çox uzaq düşərlər. Müasir marketinq alətləri insani münasibətləri də pula çevirməyə başlayır. Görürsən, iki insan üzbəüz əyləşib, bir-birinə baxıb söhbət eləmək əvəzinə gözləri telefonun ekranındadır, sosial şəbəkələrdə dolaşırlar.

Əlbəttə, innovasiyalar lazımdır. Sosial şəbəkələrdən istifadə etməkdə də bir qəbahət görmürəm. Bu, dövrün faydalı yeniliyidir. Amma nəzərə almaq lazımdır ki, hər şey insani dəyərlərin inkişafına xidmət etməlidir. Texnologiyalar insanların arasına girməməlidir. Adamlar bir-birinə vaxt ayırmalıdırlar, diqqət yetirməlidirlər. Belə olsa, doğmalıq artar. Bu olmayanda soyuqluq yaranacaq.

### Dostlarım o qədər də çox deyil

- Dostluq mənim üçün çox ağır dəyərdir. Düşünürəm ki, bu ağırlığı daşımaq hər kişinin hünəri deyil. Birinci sinifdən dostluq münasibətlərini qoruduqlarım var. İllərin sınağından çıxan çoxlu dostlarım da olub, yenə də var. Milli Məclis də mənə çox dəyərli dostlar qazandırıb.



Bu həyatda kiməsə dost deyib sonra yarıyolda qoyanları da görmüşəm. Beləl668rindən dərhal özüm uzaqlaşmışam ki, başqasına dost ola bilməyən mənə də dost ola bilməz.

Qəribə bir xasiyyətim də var, qoy ondan da danışım. Tale elə gətirib ki, özüm həmişə vəzifə sahibi olduğumdan dostlarımın, oturub-durduqlarımın da əksəriyyəti elə məmurlar olub. İllərlə çörək kəsdiyim, dost dediyim bu məmurların qəfildən sadə insanlara qarşı kobud davranışını, işçilərinə yuxarıdan aşağı baxmasını və bu kimi digər vərdişlərini görəndə onlardan uzaqlaşmışam, münasibətləri soyutmuşam və tədricən tam kəsmişəm.

Çünki anlamışam ki, bizi birləşdirən səmimiyyət, mənəvi dəyərlər deyil, əslində, inzibati mənsubiyyətdir, maddiyyatdır, vəzifədir. Bu gün kasıba, ona möhtac olana rişxənd, lağ edənə, etinasız yanaşana mən necə dost deyə bilərəm?!

Özüm belə olmamışam, indi də elə deyiləm. İşçilərimlə, mənə tabe olanlarla hər zaman birmənalı ehtiramla, anlayışla davranmışam. Onlara hörmət edib, hörmətlərini, təəssübkeşliklərini, canıyananlıqlarını da görmüşəm. Mənim qarşımdakı adi bir insan bəzən çox vəzifəlidən, dost bildiklərimdən daha kişi adam olub!..

Bir dəfə Moskva qəzetlərindən birinə müsahibə verərkən jurnalist məndən soruşdu ki, sən insanları hansı prinsiplə qəbul edirsən? O dəqiqə fikirləşmədən dedim: O insan qapıdan içəri girən kimi mən özümlə onun yerini dəyişirəm və mən özümü onun yerində hiss edirəm.

Hətta elə anlar olub ki, süfrəmin başında otura-otura məni yumşaq şəkildə şantaj ediblər. Planetin ən böyük yazıçılarından biri olan Çingiz Aytmatovla dost idik. Bizi bir-birimizə bağlayan yaradıcılıq telləri olub. O, Brüsseldə səfir işləyərkən bir dəfə ora getmişdim. Bir neçə gün bir yerdə olduq. Çoxluca şəkillər çəkdirdik. Dediyim kimi, ənənəvi olaraq yenidən dostlarla bir yerdə idik. Süfrə açmışdım. Çingiz Aytmatovla çəkdirdiyim şəkilləri onların qarşısına qoyub, "baxın" dedim, özüm isə nə üçünsə bir neçə dəqiqəliyə bayıra çıxdım. Mən çıxan kimi dostlarımdan biri deyibmiş ki, bu şəkillər "montaja" oxşayır. Əlbəttə, çox keçməmiş orda oturanlardan biri bunu mənə çatdırdı. Düzü, pərt oldum. Heç gözləmirdim. Bax, belə "dost"larım da olub. Həyatdır da...

### Nəvələrim həyatımın mənasıdır

- Yaxşı deyiblər ki, dövlətdə dəvə, övladda nəvə. Nəvələrimlə vaxt keçirməyi çox sevirəm. Ata-analarına da əsas tövsiyəm bu olur ki, övladlarınıza zaman ayırın. Onlar bir də bu yaşda olmayacaqlar. Körpələrin böyük diqqətinə həmişə ehtiyacları var. Bir



qədər diqqətdən kənar qoyan kimi kompüterin, televizorun qarşısından çəkilmirlər. Amma onlarla söhbət edəndə, nəsə maraqlı şeylər danışanda görürsən ki, heç bu cihazlara yaxın getmədilər. Nəvələri tez-tez başıma yığıb keçmişdən danışıram. Tariximizdə olub-keçənlərdən nəql edirəm. Bir maraq göstərirlər ki... Hər dəfə tələb edirlər ki, yenə danış...

Son illər tarixi mövzularda əsərlər yazmağımın bir səbəbi də bəlkə elə budur. İstəyirəm gənc nəsil tariximizi bu üsulla öyrənsin...

### Danışan dilim qələmimdir

- Deyə bilmərəm bu məndə alınır, ya yox, amma bacardığım qədər az danışmağa, daha çox dinləməyə çalışıram. Şeyx Nizaminin bir beyti var. Deyir:

*Dilin bəlasıdır uzunçu olmaq,*
*Ariflər işidir sükuta dalmaq.*

Milli Məclisin iclaslarında müəyyən çıxışlarım olur. Onda da həmişə çalışıram dərindən bildiyim məsələlər üzrə danışım. Söylədiklərim hansısa şəkildə gərəkli olsun. Konkret təkliflərə əsaslansın. Yoxsa elə danışmaq xatirinə danışmaq xasiyyətim deyil...

Əsas danışan dilim qələmimdir. Ölkəmizdə, cəmiyyətimizdə baş verən yeniliklər, inkişaf prosesləri, uğurlu və nöqsanlı cəhətlər haqqında publisistik düşüncələrimi mütəmadi qələmə alıram.

Sağ olsun "Azərbaycan" qəzeti... Öz səhifələrində həmişə yazılarıma yer ayırır.

Yazmağı bir ziyalı kimi vətəndaşlıq borcum hesab edirəm. Çünki özünə ziyalı deyən hər kəsin missiyası cəmiyyətə doğru olanları göstərməkdir. Düşünürəm ki, ziyalılar cəmiyyətdə hər hansı ziddiyyətləri körükləməməlidirlər. Hansısa siyasi qütbün deyil, məhz həqiqətin yanında olmalıdırlar. Polemika mühiti yaradıb, uğurları təqdir, qüsurları tənqid etməlidirlər ki, uğurlar daha da genişlənsin, qüsurlarsa aradan qaldırılsın. Mən də həmişə buna çalışıram.

Əgər faydalı ola bilirəmsə, xoş halıma...

### Heydər Əliyev zəmanəsinin ən uğurlu siyasətçisidir

- Bir dəfə kimsə soruşmuşdu ki, səncə insanın ən böyük nailiyyəti nədir? Onda cavab verdim ki, ən böyük nailiyyət başqalarının inamını qazanmaqdır. Qazanandan sonra da onu qorumağı bacarmaqdır. Çünki inamı qazanmaq da çətindir, onu qorumaq da. Bu baxımdan mənə elə gəlir ki, Ümummilli Lider Heydər Əliyev zəmanəsinin ən uğurlu siyasət adamı idi. İnsanlar Ulu Öndərə inanırdılar. Azərbaycan Prezidenti İlham Əliyevin böyüklüyü isə budur ki, o, Azərbaycan xalqının Heydər Əliyevin dövlətçilik kursuna olan yüksək inamını da qorudu, üstəlik, özü də yeni bir inam simvoluna çevrildi.

Heydər Əliyev haqqında sözümü "Görkəmli şəxsiyyətlərin həyatı" seriyasından dünyanın müxtəlif dillərinə çevrilərək ayrı-ayrı ölkələrdə böyük tirajlarla nəşr olunmuş kitablarımda oxucularımla bölüşmüşəm.

### O, tarix yazır

- Prezident İlham Əliyev haqqında nəvələrimə danışıram ki, onun necə böyük şəxsiyyət olduğunu hələ bir 50 ildən sonra biləcəksiniz. Deyirəm, mənim yaşıma gəlib çatanda o vaxt indiki yaşınızdakı uşaqlar sizi göstərib deyəcəklər ki, baxın, onlar İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə yaşayıblar. Sizə bu günlərimiz haqqında çoxlu suallar verəcəklər.

Bu gün İlham Əliyevin Mehriban xanım Əliyeva ilə birgə reallaşdırdığı inkişaf proqramları çoxumuza cari işlər kimi görünür. Kütləvi informasiya vasitələrindən rəsmi xronikaları izləyirik, düşünürük ki, hə, Prezidentimiz bu sənədə imza atdı, bu yolun açılışını etdi, bu layihəni həyata keçirdi, bu ölkələrdə görüşlər keçirdi, çıxışında bu məsələlərə toxundu. Bəlkə heç özümüz də fərqində deyilik ki, İlham Əliyev bütün bunlarla gələcək üçün nə qədər möhtəşəm bir tarix yazır.

Mənsə müşahidə etdiklərimi bir yazıçı qələmi ilə təsvir etməyə çalışıram ki, 50 il sonra bu dövrləri tarix kimi öyrənənlərə yazılı materiallarla azdan-çoxdan faydam toxunsun...



*Hər dəfə keçmişə boylananda düşünür ki, o, - nuravudlu Fazil kişinin oğlu Hüseynbala bu vaxta qədər yaşadığı ömrünə əslində bir neçə ömür sığdırıb: mühəndis ömrü, məmur ömrü, alim ömrü, yazıçı ömrü, deputat ömrü...*

*"Öyündüyümsə bircə budur ki, bu ömürlərin heç birində sadə insanlardan ayrı düşmədim, ayaqlarım yerdən üzülmədi, həmişə bu yurdun ən sıravi insanlarının yanında oldum, onlardan biri kimi yaşadım" söyləyir Hüseynbala müəllim, dərhal da əlavə edir: "İndi məni yaxından tanıyanlar deyə bilər ki, bu qədər fərqli ömürləri adında birləşdirən Hüseynbala Mirələmov əslində kimdir?! Düşünürəm ki, bu sualın ən obyektiv cavabı övladlarıma, nəvə-nəticələrimə - Mirələmov şəcərəsinə bu ömürdən qalan ən dəyərli hədiyyəm - sadəlik, təvazökarlıq, zəhmətsevərlik, düzlük, səmimilik, sədaqətli olmaq kimi dəyərlər olacaq"...*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

Elm xadimləri

# Elmə həsr olunmuş ömür

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Nyu York Elmlər Akademiyasının, Beynəlxalq Seolit Assosiasiyasının, Amerika Kimya Cəmiyyətinin, Rusiya Təbiətşünaslıq Akademiyasının və Avropa Mütərəqqi Materiallar Assosiasiyasının üzvü, SSRİ Lenin komsomolu mükafatı laureatı, Əməkdar müəllim, kimya elmləri doktoru, akademik... Bu yüksək adlar, titullar ömrünü elmə, gənc nəslin biliklərə yiyələnməsinə, vətənə, millətə, dövlətə sevgi ruhunda yetişməsinə həsr etmiş Dilqəm Tağıyevin istedadının, bacarığının, zəhmətsevərliyinin bəhrəsidir.



Azərbaycan kimya elminin zəngin ənənələri və nailiyyətləri ilk növbədə bu sahədə elmi məktəblərin yaradıcıları olan akademiklər Yusif Məmmədəliyevin, Murtuza Nağıyevin, Əli Quliyevin, Vahab Əliyevin, Həbib Şahtaxtinskinin, Sultan Mehdiyevin və başqalarının adı ilə bağlıdır. Bu görkəmli alimlər Azərbaycan elminin inkişafında əvəzsiz rol oynayaraq kimya elminə böyük töhfələr vermişlər.

Ötən əsrin 90-cı illərindən Azərbaycan elmi ardıcıl olaraq tənəzzül, şaşqınlıq, bərpa illərini arxada qoyaraq xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasəti və dəstəyi sayəsində inkişaf mərhələsinə keçmişdir. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin qayğısı nəticəsində Azərbaycan Milli Elmlər Akademiyasında aparılan islahatlar elmin digər sahələri kimi, kimya elminin də yeni, perspektiv istiqamətlər üzrə inkişafına təkan vermiş və bir sıra nailiyyətlərin əldə edilməsinə imkan yaratmışdır. Bu uğurlarda 2013-2018-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Kimya Elmləri Bölməsinin akademik katibi vəzifəsində çalışmış, 2016-cı ildən AMEA-nın vitse-prezidenti, 2014-cü ildən akademik M.Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun direktoru, akademik Dilqəm Tağıyevin də xüsusi yeri var.

Dilqəm Bəbir oğlu Tağıyev 1950-ci il yanvarın 6-da Kəlbəcər rayonunda həkim ailəsində anadan olmuşdur. 1956-cı ildə Oğuz rayonunun Xaçmaz kənd məktəbində təhsil almağa başlamışdır. 1958-ci ildə ailəsi ilə Ağdama köçdükdən sonra həm də uşaq və orta musiqi məktəblərində oxumuşdur. Əmək fəaliyyətinə 1964-cü ildə musiqi müəllimi kimi başlasa da, kimya və fizika fənlərinə xüsusi marağı, dəfələrlə iştirak etdiyi fənn olimpiadalarında uğurları onu bu sahəyə istiqamətləndirmişdir. 1966-cı ildə orta məktəbi bitirən Dilqəm Tağıyev əla qiymətlərlə Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsinin gündüz şöbəsinə qəbul olunmuşdur.

İstedadı, zəhmətsevərliyi və erudisiyası ilə fərqlənən, dərs əlaçısı olan gənc tələbə birinci kursdan elmi işlərə böyük həvəs göstərmişdir. "Azərbaycan mineral sularının hidrokimyəvi xarakteristikası" adlı ilk elmi işini uğurla yerinə yetirmişdir. 1967-ci ildə "Zaqafqaziya baharı" tələbə konfransında məruzəsinə görə fəxri fərmanla təltif edilmişdir.

Gənc tələbə ilk uğurundan daha da ruhlanmış, ikinci kursda skandiumin analitik təyini üzrə təcrübi tədqiqatlarla məşğul olmağa başlamışdır. Aspirantların otağında çalışmasına icazə vermiş Analitik kimya kafedrasının müdiri, professor Murtuza Əhmədlinin, xüsusən də elmi rəhbəri, dosent Dəmir Qənbərovun qayğısı ilə Dilqəm Tağıyev diplom işi səviyyəsində olan tədqiqatını müvəffəqiyyətlə başa çatdırmışdır. Bu tədqiqatların nəticələri 1969 və 1970-ci illərdə Tartu (Estoniya) və Novosibirsk universitetlərində keçirilən tələbə elmi konfranslarında məruzə edilmiş və Novosibirsk Dövlət Universitetinin III dərəcəli diplomuna layiq görülmüşdür.

1968-ci ildə Azərbaycan Dövlət Universitetinin tələbə elmi cəmiyyətinin sədri və universitet komsomol komitəsinin büro üzvü seçilmişdir. Elmi nəticələri 1971-ci ildə Novosibirsk və Tbilisi universitetlərində tələbə və aspirantların konfransında məruzə edilmiş və Azərbaycan Dövlət Universitetinin gənc alimlər konfransında I dərəcəli diploma layiq görülmüşdür.

1971-ci ildə fərqlənmə diplomu ilə başa vurduğu ali məktəbdə təyinatla baş laborant işləməyə başlamışdır. Universitetin rektoru, akademik Faiq Bağırzadə eyni zamanda universitet komsomol komitəsinin katibi vəzifəsində çalışmağı təklif etmişdir. Dilqəm Tağıyev isə aspirantura təhsili üçün Moskvaya getməyi qərara almışdır. O, Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun məqsədli aspiranturasına daxil olmuş, 1971-ci ilin dekabrında Moskvaya, SSRİ Elmlər Akademiyasının N.D.Zelinski adına Üzvi Kimya İnstitutuna göndərilmişdir. İxtisas imtahanında yüksək bilik nümayiş etdirdiyinə görə akademik H.M.Minaçev gənc aspiranta rəhbərliyi öz üzərinə götürmüşdür. Onun laboratoriyasında katalizdə qabaqcıl və ümidverici sahə hesab edilən kristallik alumosilikatlar (seolitlər) sahəsində tədqiqatlar yenicə başlanırdı. Dilqəm Tağıyevin tədqiqatları müşahidə edilən yeni effekt-tərkibində keçid elementləri saxlamayan seolitlərin hidrogenləşmə reaksiyasını aparmaq qabiliyyətinin aşkarlanması, tədqiqatların istiqamətini dəyişməyə və bir sıra gözlənilməz, maraqlı nəticələr almağa imkan verdi. 1974-cü ildə Üzvi Kimya İnstitutunda "Ən yaxşı elmi-tədqiqat işi" müsabiqəsində 3-cü mükafata layiq görülməsi bu tədqiqatlara verilən yüksək qiymət idi.

Dilqəm Tağıyev 1975-ci il yanvarın 7-də N.D.Zelinski adına Üzvi Kimya İnstitutunun Elmi Şurasının iclasında namizədlik dissertasiyasını müdafiə etmişdir.

Bakıya qayıdandan sonra Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda əvvəlcə mühəndis, sonra kiçik elmi işçi işləyən Dilqəm Tağıyev seolit katalizi sahəsində tədqiqatları davam etdirmişdir. 1978-ci ildə böyük elmi işçi vəzifəsinə seçilmişdir. Bu sahədə tədqiqatların intensivliyi, nüfuzlu elmi jurnallarda dərc olunan məqalələrin, beynəlxalq simpoziumlarda və ümumittifaq konfranslarda məruzələrin sayı getdikcə artmağa başlamışdır. 1978-1981-ci illərdə Kataliz üzrə Sovet-Amerika simpoziumlarında (Bakı), V Sovet-Yapon seminarında (Daşkənd), Neft kimyası üzrə sosialist ölkələrinin I və II simpoziumlarında (Bakı və Leypsiq, ADR), Heterogen kataliz üzrə IV Beynəlxalq simpoziumda (Varna, Bolqarıstan), XII Mendeleyev qurultayında (Bakı) edilən məruzələr, 1982-ci ildə kimya sahəsində ən nüfuzlu jurnallardan biri olan "Uspexi ximii" jurnalında seolitlər üzərində oksidləşdirici kataliz mövzusunda nəşr olunan icmal xarakterli yazı, bu sahədə ilk ümumiləşdirilmiş məqalə kimi Dilqəm Tağıyev tərəfindən yeni elmi istiqamətin formalaşmasından xəbər verirdi.

O, 1982-ci ilin ortalarında Moskvaya, N.D.Zelinski adına Üzvi Kimya İnstitutuna bir il müddətinə ezam edilmişdi. Akademik H.M.Minaçevin laboratoriyasında termiki desorbsiya, izotop mübadiləsi, rentgen fotoelektron spektroskopiyası sahəsində apardığı tədqiqatlar yeni formalaşdırdığı elmi istiqamətin daha da inkişaf etdirilməsində, elmi nəticələrlə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Elmi uğurlarını nəzərə alan SSRİ EA-nın Neft kimyası üzrə Elmi Şurası 1982-ci ildə Çexoslovakiyanın Marianske Lazne şəhərində keçirilən Neft kimyası üzrə sosialist ölkələrinin III Simpoziumunda iştirak edən elmi turizm qrupunun rəhbəri kimi Dilqəm Tağıyevi təsdiq etmişdi. Simpoziumda onun məruzəsi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdi.

Dilqəm Tağıyev tərəfindən seolit katalizatorlarından istifadə olunmaqla tsikloolefinlərin yeni sintez üsulunun təklif edilməsi bir çox elmi və sahə müəssisələrinin diqqətini çəkmişdi. Kaprolaktam istehsalının alternativ variantının yaradılması ilə məşğul olan Moskvadakı Dövlət Azot Sənayesi İnstitutu və SSRİ EA-nın Neft-Kimya Sintezi İnstitutu ilə aparılan birgə tədqiqatların məqsədi iri tonnajlı məhsul olan kaprolaktamin istehsalı üçün yeni texnoloji sxem hazırlamaq idi. Çoxpilləli prosesin birinci mərhələsi Dilqəm Tağıyevin tədqiqatları ilə əlaqədar idi. Həmin mərhələ üçün onun təklif etdiyi katalizator pilot qurğusunda müsbət nəticə ilə sınaqdan keçirilmişdi.

İritonnajlı digər sənaye prosesi olan stirol istehsalını intensivləşdirmək məqsədilə Dilqəm Tağıyevin təklif etdiyi katalizator Sumqayıt Sintez Kauçuk Zavodunda uğurla sınaqdan çıxmışdı. Bu işlər prioritet xarakterli fundamental tədqiqatların praktiki əhəmiyyət kəsb edən proseslərə tətbiqi baxımından maraqla qarşılanmışdır.

Seolitlər üzərində oksidləşdirici və hidrogenləşdirici kataliz sahəsində aparılan geniş tədqiqatlar nəticəsində əldə edilən mühüm elmi nəticələr ciddi rəqabətə baxmayaraq bir çox aparıcı elmi mərkəzlərin rəyindən sonra 1983-cü ildə SSRİ Lenin komsomolu mükafatına layiq görülmüşdür. Dilqəm Tağıyev kimya və kimya texnologiyası sahəsində bu mükafata layiq görülən yeganə azərbaycanlı alim olmuşdur. Həmin il Varnada düzənlənən Heterogen kataliz üzrə V Beynəlxalq simpoziumda onun tədqiqatlarının təqdimatı böyük maraq doğurmuşdur.

1984-cü il aprelin 12-də gənc alim SSRİ EA-nın Üzvi Kimya İnstitutunda Dissertasiya Şurasının qapalı iclasında dissertasiya müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdü. Onun dissertasiya işini kataliz sahəsində məşhur alimlər A.M.Rubinşteyn, A.Y.Rozovski, K.V.Topçiyeva, O.V.Krılov, V.B.Kazanski, B.K.Nefedov və başqaları yüksək qiymətləndirmişdilər.

O, otuz altı yaşında Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutu direktorunun elmi işlər üzrə müavini vəzifəsinə təsdiq olunmuşdu, "Əməkdə fərqləndiyinə görə" medalı ilə mükafatlandırılmış və "Metal-kompleks kataliz" laboratoriyasının müdiri seçilmişdir. 1985-ci ildən pedaqoji fəaliyyətlə məşğul olan Dilqəm Tağıyev Azərbaycan Neft və Kimya İnstitutunda və onun Sumqayıt filialında mühazirələr oxumuşdur.

SSRİ EA Rəyasət Heyətinin 1987-ci ilin oktyabrında keçirilən yubiley iclasında seolitlər üzərində oksidləşdirici diehidrogenləşmə sahəsində aparılan tədqiqatlar kataliz sahəsində mühüm elmi nəticə kimi qeyd olunmuşdur. Kataliz sahəsində elmi uğurları nəzərə alınaraq azərbaycanlı alim SSRİ EA-nın Kataliz üzrə Elmi Şurasının tərkibinə daxil edilmişdir.

Onun "Kristallik alümosilikatlar katalizdə" monoqrafiyası 1989-cu ildə işıq üzü görmüşdür. Yeni təşkil olunan SEOLİT sahələrarası elmi-texniki kompleksinin baş direktoru təyin edilmişdir. Həmin il bir qrup gənc elmlər doktorlarının təşəbbüsü ilə təsis olunan Azərbaycan Alimlər İttifaqının sədr müavini seçilmişdir. 1990-cı ildə SSRİ EA-nın nümayəndə heyətinin tərkibində Almaniyada, 1991-ci ildə Bolqarıstanda elmi ezamiyyətdə olmuş və Heterogen kataliz üzrə VI Beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir. 1992-ci ildə "Heterogen kataliz neft kimyasında" monoqrafiyası çapdan çıxmışdır.

Yüksək səviyyəli mühazirəçi kimi tanınan Dilqəm Tağıyevi əvvəlcə Azərbaycan Neft və Kimya İnstitutunun Fiziki və kolloid kimya kafedrasının professoru, 1991-ci ildə isə Azərbaycan Tibb Universitetinin Ümumi kimya kafedrasının professoru seçsələr də, o, eyni zamanda, Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda elmi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Tibb Universitetində 1993-cü ildə Əczaçılıq fakültəsinin dekanı, 1995-ci ildə isə Ümumi və bioüzvi kimya kafedrasının müdiri seçilmişdi.

1999-cu ildə Azərbaycan EA akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Musa Rüstəmovun dəvəti ilə kataliz profilli üç laboratoriyanın birləşməsindən yaranan "Heterogen kataliz" laboratoriyasına əvəzçiliklə müdir təyin edilmişdi. Həmin vaxtdan onun elmi tədqiqatları daha geniş vüsət almağa başlamış, izomerləşmə, alkilləşmə və oliqomerləşmə prosesləri üçün yeni katalitik sistemlərin yaradılması sahəsində aparılan tədqiqatlarda mühüm elmi nəticələr əldə edilmişdi. 2000-ci ildə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Dilqəm Tağıyev 1994-cü ildə Nyu York EA-nın, 2001-ci ildə isə Beynəlxalq Seolit Assosiasiyasının üzvü seçilmiş və Fransanın Monpelye şəhərində keçirilən 13-cü Beynəlxalq Seolit konfransına dəvət almışdır. Möhtəşəm tədbirdə nümayəndə qismində iştirakı gələcək əməkdaşlıq üçün zəmin yaratmışdır.

Elmi nailiyyətləri nəzərə alınaraq 2007-ci ildə o, neft-kimya ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilmişdir. Dilqəm Tağıyevin elmi yaradıcılığına və elmi-təşkilati fəaliyyətinə müxtəlif vaxtlarda Rusiya EA-nın həqiqi üzvləri H.M.Minaçev, B.M.Qryaznov, V.B.Kazanski, A.E.Şilov, B.N.Parmon, V.V.Lunin, S.N.Xadjiyev, eləcə də Belorusiya, Ukrayna, Gürcüstan MEA-nın akademikləri yüksək qiymət vermişdirlər.

2010-cu ildə kataliz və neft kimyası sahəsində elmi fəaliyyəti nəzərə alınaraq Dilqəm Tağıyev AMEA-nın "Kataliz" üzrə Problem Şurasının sədri təsdiq edilmişdir. Alim kataliz istiqamətində perspektiv tədqiqatlar üzrə yeni proqram hazırlamışdır. Həmin il "Tərəqqi" medalı və AMEA-nın fəxri fərmanı ilə təltif olunmuşdur. 2012-ci ildə Beynəlxalq Sokrat Komissiyasının (Oksford, Böyük Britaniya) təklifi ilə "The Name in Science" mükafatına və fəxri tituluna layiq görülmüşdür.

O, 2013-cü ildə AMEA-nın ümumi yığıncağında Kimya Elmləri Bölməsinin akademik katibi və Rəyasət Heyətinin üzvü vəzifələrini icra etmişdir. Həmin il Rusiya Təbiətşünaslıq Akademiyasının üzvü seçilmiş və Avropa elm-sənaye konsorsiumunun mükafatlar üzrə komissiyasının qərarı ilə "Əmək və biliklə" ordeninə layiq görülmüşdür.

2014-cü ildə akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü seçilmiş, "Azərbaycan kimya jurnalı"nın baş redaktoru və "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" üzrə Dövlət Komissiyasının üzvü təsdiq edilmişdir.

O, institut direktoru olduğu ilk vaxtlardan geniş islahatlara başlamış, İnstitutun strukturu, prioritet istiqamətləri, elmi mövzuları dövrün tələblərinə uyğun təşkil olunmuşdur. 2014-2019-cu illərdə institutun bütün elmi göstəricilərində nəzərəçarpacaq yüksəliş müşahidə olunmuş, 36 mühüm elmi nəticə AMEA-nın hesabatlarına daxil edilmiş, 310-u Web of Science bazasına daxil olmaqla 750 məqalə xaricdə çap edilmiş, 40 monoqrafiya, kitab və dərslik işıq üzü görmüş, 8-i beynəlxalq statuslu olmaqla 37 qrant alınmış, elmi əsərlərə istinadların sayı 3000-i keçmişdir. "Azərbaycan kimya jurnalı"nın redaksiya heyətinin tərkibi dəyişdirilmiş, redaksiya şurasına tanınmış xarici alimlər cəlb edilmiş, jurnalın formatı beynəlxalq jurnalların tələblərinə uyğun olaraq dəyişdirilmiş və məqalələrin hamısının ingilis dilində təqdim və çapı təmin edilmişdir. İnstitutda nəşr edilən digər jurnal - "Kimya Problemləri" jurnalı Clarivate Analytics bazasına daxil edilən AMEA üzrə 4 elmi jurnaldan biri olmuşdur.

İlk dəfə rus dilində "Azərbaycan kimya elminin korifeyləri" və institutun yubileyinə həsr olunmuş "Kataliz və Qeyri-üzvi Kimya İnstitutu - 80" kitabları Dilqəm Tağıyevin təşəbbüsü və baş redaktorluğu ilə işıq üzü görmüşdür. Azərbaycanın görkəmli alimləri Murtuza Nağıyevin, Heydər Əfəndiyevin və Xudu Məmmədovun yubileyləri təntənə ilə qeyd edilmişdir.

Beynəlxalq əməkdaşlıq çərçivəsində İspaniya, Almaniya və Böyük Britaniya elmi mərkəzləri və universitetləri ilə müştərək iki Beynəlxalq laboratoriya təşkil olunmuşdur. İtaliya elm günü ilə bağlı Azərbaycan-İtaliya kimya seminarı, ondan bir il sonra innovativ polimerlər üzrə Azərbaycan-İtaliya elmi seminarı keçirilmişdir.

Akademik Dilqəm Tağıyev 750-dən çox elmi əsərin, həmçinin xaricdə çap olunan 470 məqalə və tezisin, 60 müəlliflik şəhadətnaməsi və patentin, 21 monoqrafiya, kitab və dərsliyin, 16 tədris-metodik vəsaitin müəllifidir. 5 kimya elmləri doktoru və 13 fəlsəfə doktoru yetişdirmişdir. Elmlər doktoru və fəlsəfə doktoru hazırlığı üzrə bir neçə doktorant hazırda dissertasiya üzərində çalışır. O, dəfələrlə Fransa, Almaniya, İspaniya, İtaliya, Avstriya, İsveçrə, Şotlandiya, Bolqarıstan, İsrail, Çexiya, İsveç, Sloveniya, Türkiyə, Rusiya və başqa ölkələrdə keçirilən beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirak etmişdir.

AMEA Kimya Elmləri Bölməsinin elmi fəaliyyətinin gücləndirilməsi üçün akademik Dilqəm Tağıyev bölmənin akademik-katibi və AMEA-nın Rəyasət Heyətinin üzvü kimi mühüm işlər görmüş, bölmə institutlarının yeni prioritet istiqamətlər üzrə fəaliyyəti naminə ciddi səylər göstərmişdir.

AMEA-nın fəaliyyətini cəmiyyət qarşısında işıqlandırmaq və təbliğ etmək məqsədilə Dilqəm Tağıyev dəfələrlə "Elm və innovasiya", "Media və zaman", "Geriyə baxanda" və "Səhər" verilişlərinin qonağı olmuş, mətbuatda məqalələr dərc etdirmişdir. Bir çox nüfuzlu konqreslər və konfranslara dəvət almış, onların bəzilərinin təşkilat komitəsinin üzvü olmuşdur. 2016-cı ildə Respublika Elmi Əlaqələndirmə Şurasının üzvü və AMEA Rəyasət Heyətinin nəzdində "Yalançı elmə qarşı mübarizə" komissiyasının sədri təyin olunmuşdur.

Akademik Dilqəm Tağıyev 2016-cı ilin dekabrında AMEA-nın vitse-prezidenti vəzifəsinə təyin olunmuş və akademik katib vəzifəsi də ona həvalə edilməklə 2017-ci ilin iyununda AMEA-nın ümumi yığıncağında vitse-prezident seçilmişdi.

UNESCO-nun Baş konfransında elm komissiyalarının işində fəal iştirak edərək komissiyaların sədrləri Kristof Vanden-berq və Patrik Mc Kiver ilə Azərbaycanda qlobal geoparkların yaradılması istiqamətində müzakirələr aparmış, lazımi materialları komissiyaya təqdim etmiş və ilkin razılaşmaya nail olmuşdur.

Dilqəm Tağıyev Avropa Birliyinin keçirdiyi Horizon-2020 Beynəlxalq qrant müsabiqəsində Belçikanın Gent Universitetinin professoru Joris Tibotun təklifi əsasında beynəlxalq qrupun tərkibinə qoşulmuşdur. Onun namizədliyini, J.Tibot məktubunda yazdığı kimi, Lionun (Fransa) "Kataliz və Ekoloji Tədqiqatlar İnstitutu" və Norveçin SİNTEF şirkətləri tövsiyə etmişdir. İki mərhələdə həyata keçirilən qrant müsabiqəsində Avropanın 7 dövlətinin 11 elmi qurumu daxil olan beynəlxalq qrup, eləcə də partnyor təşkilat kimi Azərbaycan Milli Elmlər Akademiyası və onun koordinatoru Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru Dilqəm Tağıyev nüfuzlu beynəlxalq ekspert komissiyasının qərarı ilə qrant müsabiqəsinin qalibi olmuşdur.

Elm yolunda çəkilən zəhmət nura dönür, neçələri bu işıqdan istiqamət alaraq gələcəyə üz tutur. Ömrünün böyük hissəsini elmi tədqiqatlara və pedaqoji fəaliyyətə həsr edən, Azərbaycan kimya elminin inkişafı yolunda yorulmadan çalışan akademik Dilqəm Tağıyev də belə, çoxları üçün örnək olan, yol göstərən şəxsiyyətlərdən biridir. Onu şərəfli yubiley yaşı münasibəti ilə təbrik edirik və dəyərli alimə kimya elminin gələcəyi üçün yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Vaqif FƏRZƏLİYEV,***
***Azərbaycan Milli Elmlər Akademiyası Kimya Elmləri Bölməsinin akademik katibi, akademik***

## Leyla Əliyevanın təşəbbüsü ilə RAGB könüllüləri uşaqlar üçün Yeni il aksiyası təşkil ediblər

Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin sədri (RAGB) Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada, Qorki adına parkda uşaqlar üçün "AMORKIDS" adlı ənənəvi Yeni il aksiyası təşkil edilib.



AZƏRTAC xəbər verir ki, parka gələnləri Şaxta baba qarşılayıb. O, qonaqlara əsl Yeni il şənliyi təşkil edib və onlara hədiyyələr bağışlayıb. Uşaqlar sevinc hissilə müsabiqələrdə və oyunlarda iştirak ediblər, çalıb oynayıblar, mahnı və şeir oxuyublar, tapmacalara cavab tapıblar və dövrə vurublar.

## Lerikdə 48 aztəminatlı ailə Yeni ili təzə mənzillərdə qarşıladı



Ulu yaradan bu diyardan səxavətini əsirgəməyib. Bir tərəfi uca dağlar, bir tərəfi nadir ağaclarla zəngin meşələr, bir tərəfi də bol-bol nemətlər yetirən tarlalar. Yuxarıda, qayaların ətəyində abad bir şəhər. Bura dağlar gözəli Lerikdir. Ötən əsrin 70-ci illərində bizm tərəfləri gəzib-dolaşan Ukraynanın xalq şairi Mikola Upenik Leriki "Dağların ağ şəhəri" adlandırıb. Bu ad ona necə də yaraşır.

Prezident İlham Əliyevin Lerikə ötənilki səfərindən sonra şəhərdə tikinti-abadlıq işləri geniş vüsət alıb. Uşaq bağçası qapılarını körpələrin üzünə açıb. Bayraq meydanı, kənd təsərrüfatı işçiləri üçün inzibati bina istifadəyə verilib. İnternat məktəbi yanında üçmərtəbəli yataqxana, idman zalının tikintisi davam etdirilir.

Şəhər əhalisinin içməli suya tələbatı tam ödənilib. Dağlardan 3 kilometr uzunluğunda alternativ kəmər çəkilib. Leriklilər 24 saat bulaq suyundan gen-bol istifadə edirlər. Modul tipli elektrik stansiyası işə düşüb. Stansiya qonşu Yardımlı rayonunu da enerji ilə təmin edir.

Dövlət başçısının sərəncamı ilə şəhərdə aztəminatlı 48 ailə üçün tikilən bina Yeni il ərəfəsində istifadəyə verilib. Bu münasibətlə keçirilən mərasimdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov sakinləri təbrik edib, mənzillərin açarlarını onlara təqdim edib. Yeni mənzil alanlar ölkə rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Mənzillər müasir məişət avadanlıqları ilə təmin olunub, qaz, işıq, su, telefon xətləri çəkilib. Onların rahatlıqları üçün hər cür şərait yaradılıb.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***Əməkdar jurnalist***

## Azərbaycanın pravoslav xristianları Milad bayramını qeyd ediblər

Pravoslav xristianlar yanvarın 6-dan 7-nə keçən gecə İsa Peyğəmbərin mübarək mövludunu - Milad bayramını qeyd ediblər.



AZƏRTAC xəbər verir ki, bu bayram Müqəddəs gecədən başlayır. Həmin gün pravoslavlar üçün 40 günlük pəhrizin sonuncu günü və Milad bayramına hazırlıq dövrüdür. Günəş batandan sonra bütün ailə masa arxasında toplaşır. Süfrəyə İsa peyğəmbərin həvarilərinin sayına uyğun olaraq 12 pəhriz yeməyi qoyulur və bu yeməklərin hər birindən mütləq dadmaq lazımdır. Masada canlı alov - şam yanır. Müqəddəs gecənin ən başlıca yeməyi kutyadır. Adətən onu buğdadan hazırlayırlar. Amma üyüdülməmiş başqa yarmadan da istifadə etmək olar. Taxıl dənləri vahid bəşəriyyətin rəmzidir. Kutyada birləşdirici vasitə kimi bal və ya siropdan istifadə olunur. Bu şam yeməyi ilə Milad pəhrizi başa çatır. Yanvarın 7-də bütün yemək məhdudiyyətləri aradan qaldırılır və əsl bayram ziyafəti təşkil edilir.

Deyilənlərə görə, Milad bayramında evdən darçın və vanil ətri gəlməlidir. Yəni məxsusi yemək olmadan bu bayramı təsəvvür etmək mümkün deyil. Qədim zamanlarda daha bir ənənə olub: bayram günlərində yalnız təzə libaslar geyinirdilər.

İnanclara görə, Milad gecəsində ürəkdə ən ümdə arzunu tutmaq lazımdır, onda bu arzu mütləq həyata keçir. Məhz bu gecədə su, təbiətin özü və hava sanki sehrlə dolaraq bütün arzuların həyata keçməsinə kömək edir. Milad ənənələrinə görə, bayram günlərində insanlar vaxtlarını şən keçirməli, qəmqüssədən uzaq olmalı, həyatdan zövq almalıdırlar.

Azərbaycanın pravoslav xristian icması da Milad bayramını təntənə ilə qeyd edir. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz ölkəmizin ərazisində yaranıb. Müxtəlif dinlərin nümayəndələri əsrlər boyu torpağımızda dinc yanaşı yaşayır, öz adət-ənənələrini sərbəst şəkildə icra edirlər. Azərbaycanda heç vaxt milli və irqi zəmində ayrı-seçkilik, dini dözümsüzlük olmayıb. Digər konfessiyaların nümayəndələri kimi, xristianlar da cəmiyyətimizin tamhüquqlu üzvüdürlər. Ölkədə bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev hər il olduğu kimi, bu il də pravoslav xristian icmasına Milad bayramı münasibətilə təbrik ünvanlayıb. Təbrikdə deyilir ki, Azərbaycanda əsrlər boyu müxtəlif xalqların və konfessiyaların nümayəndələri mehriban qonşuluq, dostluq və qarşılıqlı etimad şəraitində yaşamışlar. Cəmiyyətdə etnik-mədəni müxtəlifliyin, multikultural ənənələrin və dözümlülük mühitinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlətimizin siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmlənməsinə önəmli töhfələr verən mötəbər tədbirlərin, o cümlədən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Dünya dini liderlərinin II Bakı Sammitinin ölkəmizdə keçirilməsi beynəlxalq miqyasda sülhün, əmin-amanlığın və harmoniyanın bərqərar olunması işində Azərbaycanın mühüm rol oynadığını göstərir. Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristianlar ölkəmizdə gedən böyük quruculuq işlərində və milli-mənəvi həmrəyliyin daha da gücləndirilməsində vətəndaşlıq borcunu layiqincə yerinə yetirir, Azərbaycanın tərəqqisi naminə bacarıq və səylərini əsirgəmirlər. "Mübarək Milad bayramı yeni həyatı, dirçəlişi, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin" deyə dövlət başçısı təbrikdə qeyd edir.

Yenilənmə, əmin-amanlıq, şəfqət və mərhəmət rəmzi olan bu bayram ilə əlaqədar yanvarın 6-dan 7-nə keçən gecə Azərbaycanın bütün pravoslav kilsələrində təntənəli ibadət mərasimləri keçirilir.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr Ata jurnalistlərə müsahibəsində bildirib ki, dünyanın hər yerində yaşayan pravoslav xristianları bu gün Milad bayramını qeyd edirlər. Bu bayram sülhün carçısı olduğuna görə bizim üçün xüsusi əhəmiyyətə malikdir. O, Azərbaycandakı tolerant, multikultural mühitin əhəmiyyətini vurğulayıb.

Aleksandr Ata tolerantlıq və multikulturalizm ideyalarının təbliğinə yönəlmiş tədbirlərin keçirilməsinə görə Azərbaycan Respublikasının rəhbərliyinə minnətdarlığını bildirib. Vurğulayıb ki, Dünya dini liderlərinin II Bakı Sammiti belə mühüm tədbirlərdən biridir. O, bütün pravoslav xristianları mübarək Milad bayramı münasibətilə təbrik edib, Azərbaycan xalqına sülh və firavanlıq diləyib.

Sonra bayram mərasimi başlayıb.

# Gədəbəy Rayon İcra Hakimiyyəti
## *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir.

LOT 1 - Gədəbəy şəhərində şəhərdaxili küçələrin, dalanların və meydanların asfaltlaşdırılması.

LOT 2 - Gədəbəy şəhərində şəhərdaxili küçə, meydan və parkların abadlaşdırılması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lotlar üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqının məbləği:**

**LOT 1 - 220 manat**
**LOT 2 - 220 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.**

**Təşkilat Gədəbəy Rayon İcra Hakimiyyəti**
**VÖEN: 5900076651**
**Fond: 7Y**
**XHK: (004240)2513931**
**Büdcə təsnifatının kodu: 142330**
**Hesab nömrəsi: AZ67CTRE00000000000002513931**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kodu: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BİK: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər: iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensialı haqqında məlumat, maddi-texniki bazası, o cümlədən maşın, mexanizm və digər texnikaların mövcudluğu haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12.02.2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **20.02.2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **21.02.2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnış elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Ağstafa Suvarma Sistemləri İdarəsi
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1 - Cari və əsaslı təmir üçün mal-materialların satın alınması

İştirak haqqı 70 manatdır.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatları əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar öz tender təkliflərində bütün vergi rüsumları və digər xərclərini nəzərə almalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqələndirici şəxs: Aşırov Nurəddin Tapdıq oğlu**
**Ünvan: Ağstafa şəhəri, Şıxəli Qurbanov küçəsi, 19**

**Ağstafa SSİ**
**VÖEN: 3600071211**
**Bank rekvizitləri:**
**Hes/hes: AZ85AII32051019445200201152**
**VÖEN: 3600068011**
**Bank: "Kapital Bank"ın Ağstafa filialı**
**Kodu: 200521**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.BİK - AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **27.01.2020-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **04.02.2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **05.02.2020-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

E-şərtlər toplusunu **07.02.2020-ci il** tarixdən sonra əldə edə bilərsiniz.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə
## *tender elan edir*

Tender 4 LOT üzrə keçirilir.

LOT 1 Rulon məhsulların alınması
LOT 2 Dəftərxana məhsullarının alınması
LOT 3 Ciddi hesabat qəbzləri və ştrik kodların alınması
LOT 4 İstismar blanklarının alınması

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi

LOT 1 300 manat
LOT 2 250 manat
LOT 3 250 manat
LOT 4 200 manat

məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BİK: AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənilməlidir.**

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **31 yanvar 2020-ci il saat 15:00-dək**, tender təklifini və tender təklifinin bank təminatını isə **10 fevral 2020-ci il saat 11:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **11 fevral 2020-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü,
(tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

# «Xəzərdən ayrıla bilmərəm...»

Azərbaycanın neft-qaz sənayesində nəsillərin estafeti uğurla davam edir. Yaşa dolan neftçilər onları əmək meydanında əvəz etməyə gələn gənclərin bilgilərindən, qısa müddətdə istehsalatda qazandıqları səriştədən qürur duyurlar. Gənclər isə veteranların zəngin təcrübəsini yüksək dəyərləndirir və bu "xəzinə"dən daha çox bəhrələnməyə çalışırlar.



Namiq də söhbətə elə bu mövzudan başladı. Dedi ki, 16 il əvvəl Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neft-mexanika fakültəsini maşınların möhkəmliyi və dinamikası ixtisası üzrə bitirəndən sonra "Azərenerji"də mühəndis işləyib. Sonra tale onu Neft Daşlarına gətirib. 2007-ci ildən "Neft Daşları" NQÇİ-nin 1 nömrəli neft və qazçıxarma sahəsində operator kimi çalışmağa başlayıb:

- Bura mənim üçün tamamilə yeni bir sahə idi. Doğrudur, ali məktəbdə, eləcə də əvvəl işlədiyim müəssisədə müəyyən bilik və səriştə qazanmışdım. Lakin burada özümü doğrultmaq üçün neft sahəsinə uyğunlaşmalı idim. Yaşlı həmkarlarımın təcrübəsinə güvəndim. Onlardan peşənin sirlərini öyrəndim. Bu mənada ustam Namiq Məmmədova çox minnətdaram.

Çox keçmir ki, Namiq Səmədovu neft və qazçıxarma ustası təyin edir və idarənin 2-ci sahəsinə göndərirlər. Buranı sadəcə "2-ci mədən" adlandırırlar. Mədənin sutkalıq neft hasilatı 368 tondur. Əlavə tapşırıqlar da olur və onlar da layiqincə yerinə yetirilir. 2-ci mədən NQÇİ-nin ən böyük və köhnə sahələrindəndir. Lakin Namiq bildirir ki, burada köhnəlikdən əsər-əlamət qalmayıb. Bütün işlər texnika və texnologiyanın son nailiyyətlərinin tətbiqi ilə həyata keçirilir:

- Elektron cihazların vasitəsilə quyuya vurulan qaza, eləcə də oradan çıxarılan karbohidrogenlərə tam yeni sistemlə nəzarət olunur. Hasil edilən neft və qazın analizi ən müasir laboratoriyalarda aparılır.

Bu günün neftçisi də kombinezonu mazutlu dünənki neftçi deyil. İndi o, fiziki güc yox, bilik, savad, səriştə nümayiş etdirməlidir. Odur ki, Namiq Səmədov yenidən vaxtilə bitirdiyi universitetə üz tutub. Çalışdığı sahəni daha dərindən öyrənmək məqsədilə burada yenidən təhsil alaraq neft-qaz mühəndisi ixtisasını qazanıb. Bu addımının dövlətin bütün sahələrdə gənc mütəxəssislərə, cavan kadrlara inam və etimadı ilə bağlı olduğunu da qeyd edir. Deyir ki, Prezident İlham Əliyev çıxışlarında son illər neft-qaz sənayesində yetişmiş mütəxəssisləri yüksək dəyərləndirib. Neft Daşlarında işləyən gənclərin boynuna çalışdıqları sahədə bu inamı doğrultmaq vəzifəsi düşür.

Ona başqa bir yerdə iş, vəzifə təklif olunarsa, Neft Daşlarından ayrılacağı, yoxsa ayrılmayacağı barədə suala Namiq qətiyyətlə cavab verir. Burada işləməyin böyük şərəf olduğunu söyləyir:

- Amma bu, həm də çətindir, - deyir. - İradəsi zəif, əqidəsi dəyişkən olanlar dəli-dolu Xəzərin şıltaqlıqlarına tab gətirə bilməzlər...

"Xəzərin cazibə qüvvəsi böyükdür. Ona bağlandınmı, başqa iş yeri seçmək mümkün olmur". Bu sözləri zaman-zaman bir çox neftçilərdən eşitmişik. Namiq isə bunu dolayısı ilə, həyatında baş vermiş bir hadisəni danışmaqla təsdiqlədi:

- İki-üç il əvvəl mən dənizdə əmək növbəsində olanda körpə oğlum möhkəm xəstələnmişdi. Telefonla bu xəbəri eşidəndə çox həyəcanlandım. Bir tərəfdən uşağın vəziyyəti, digər tərəfdən isə əlimin-ünümün ona yetməməyi... Sağ olsunlar, idarədən vertolyotla tezliklə sahilə dönməyimə şərait yaratdılar. Özümü evə çatdırdım. Amma böyük sarsıntı yaşamışdım. Ürəyimdən keçirdim ki, iş yerimi dəyişəcəyəm. Lakin ürəyim başqa söz dedi. Yenidən dənizə döndüm və bir daha qət etdim ki, Neft Daşlarından, işimdən-peşəmdən heç vaxt ayrıla bilmərəm...

***Flora SADIQLI,***
***foto Ağaəli MƏMMƏDOVUNDUR,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

"Azərişıq" ASC-nin Tender komissiyası tərəfindən 10.12.2019-cu il tarixdə Müxtəlif sayğac möhürlərinin satın alınması məqsədilə elan edilmiş açıq tender üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 08 noyabr 2019-cu il tarixdə "Azərbaycan" qəzetində və etender.gov.az saytında elanı verilmiş **Elektrik tənzimləyici və avtomatın** satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu prosedurunun ləğv olunmasına qərar verilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Aztelekom" MMC tərəfindən 26.11.2019-cu il tarixdə "Neftçala TKQ-nın inzibati binasında dam örtüyünün dəyişdirilməsi işlərinin" və 27.11.2019-cu il tarixdə "Aztelekom" MMC-nin inzibati və texnoloji binasının 2-ci mərtəbəsinin xətt aparat sexində lambirin konstruksiyalı otaqların, həmçinin digər mərtəbələrdəki divarlarda lambirin yüklərin yanmayan materiallarla əvəz olunması işlərinin" satın alınması elan olunmuş açıq tender prosedurlarında 27.12.2019-cu il saat 11:00-da keçirilməsi nəzərdə tutulan hər iki tender üzrə iddiaçıların sayı 3-dən az olduğu səbəbindən açıq tender prosedurlarının davamından imtina edilir.

***Tender komissiyası***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Arzu Kazımovaya anası

**RÜBABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Nüsrət Cahangirova atası

**MƏQSƏD CAHANGİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat naziri Mikayıl Cabbarov təhsil eksperti Etibar Əliyevə anası

**ZEYNƏB XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-nın sədri Hikmət Osmanova əzizi

**SƏNUBƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın Elmi-Tədqiqat Nəqliyyat və Aviakosmik Problemləri İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü, akademik

**BAHADIR HÜSEYN OĞLU TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Məhəmməd Mehdiyev, Həmzağa Orucov, Şamo Cəbrayılov və Ramiz Cəbrayılov Bakı Dövlət Universitetinin Xarici dil kafedrasının müdiri, professor Abbas Abbasova əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6839
Sifariş 1
Qiyməti 40 qəpik